Xalqın qəzeti!

# Xalq qəzeti

№ 176 (30870) 22 avqust 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


**Sülh müqaviləsinin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur**

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

# Kəlbəcər, biz sənə də qayıtdıq!

## *Prezident İlham Əliyevlə birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Ağdərə rayonlarına səfəri*

## Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanışlıq





**Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olublar.**

Dövlətimizin başçısı bu yolun 13,5-ci kilometrliyində inşa edilmiş və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışını edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və birinci xanıma görülmüş və hazırda həyata keçirilən işlər barədə məlumat verdi.

Xatırladaq ki, 2021-ci ilin avqustunda bu yolun təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən ən mühüm infrastruktur layihələrindən biri də uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur. Bu yolun 56 kilometrini Toğanalı-Kəlbəcər hissəsi, 26 kilometrini isə Kəlbəcər-İstisu hissəsi təşkil edir.

Avtomobil yolunun 13,5-ci kilometrliyindən Murovdağ silsiləsi başlayır. Beləliklə, yolun ən mühüm hissəsi Murovdağ silsiləsindən keçir. Burada yüksəklik 1700 metrdən 3250 metrədək artır. Qış fəslində avtomobil yolunun təhlükəsiz istismarı üçün Murovdağ silsiləsinin altından tunelin tikintisi məqsədəuyğun hesab edilib. Murovdağ tuneli dünyanın ən uzun avtomobil tunellərindən biridir. Belə ki, uzunluğuna görə bu tunel dünyada 18-ci, Avropada 5-ci, MDB ölkələri arasında isə birincidir. Tunel iki gediş və iki gəliş olmaqla 4 hərəkət zolaqlı olacaq. Tuneldə qazma, həmçinin sağ və sol hissələri birləşdirən 38 keçid tuneli üzrə işlər artıq başa çatdırılıb. Layihə çərçivəsində Murovdağ tunelindən əlavə ümumi uzunluğu 2636 metr olan daha dörd tunel də tikilir. Bu tunellərdə əsas tikinti işləri, o cümlədən qazma, kəmər-beton və digər texniki işlərin çoxu artıq yekunlaşdırılıb.

Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu layihəsi çərçivəsində ümumilikdə işlərin 87 faizi icra olunub.

Bu avtomobil yolu Göygöl rayonunun Toğanalı kəndindən başlayaraq işğaldan azad edilmiş Kəlbəcərdən keçir və məşhur İstisu istirahət zonasına qədər uzanır. Yol rayon mərkəzi ilə yanaşı, bölgənin yaşayış məntəqələrinə rahat və təhlükəsiz nəqliyyat əlaqəsini təmin edəcək, kənd təsərrüfatının, turizmin inkişafına töhfəsini verəcək.

Belə çətin coğrafi şəraitdə bu cür strateji əhəmiyyətə malik layihənin icrası bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş rayonlarımızın qısa müddətdə bərpası, o cümlədən həmin bölgələrimizdə müasir yol-nəqliyyat infrastrukturunun yaradılması Azərbaycan dövlətinin diqqət mərkəzindədir.

## CƏFƏNGİSTAN

### *Gerçəyi saxtalaşdırmaq üzrə püxtələşmiş haylar öz rəmzlərini də təhrif ediblər*



**Ermənilərin həm də bu sahədə bizi qınamağa heç bir haqlarının olmadığını özlərinin soyuq başları da yaxşı bilərlər. 2020-ci ilin sentyabrından sonra bölgədə yaranmış yeni reallıq fonunda yalnız özlərinin ziyanına işləyən saxta və çürük nəzəriyyələrdən əl çəkmək istəməyənlərin yaşadığı məkanı məhz "Cəfəngistan" adlandırmağımız daha doğru olar.**

ardı səhifə ⇨ 8

## TDT-yə inteqrasiya Ermənistanı dalandan çıxarar

**Cənubi Qafqazda baş verən son geosiyasi proseslər Ermənistanın gələcək inkişaf trayektoriyasını maraqlı suallar qarşısında qoyur. Ölkə uzun illər Qərbə inteqrasiya xəyalları ilə yaşasa da, reallıq onu daha yaxın və daha sərt seçimlərlə üz-üzə qoyur. Seçimlərin ən önəmlisi Ermənistanın Türk Dövlətləri Təşkilatı (TDT) ilə münasibətləridir.**

Ermənistan bu gün strateji seçim qarşısında dayanır. Onun xarici siyasətində Avropa istiqaməti illərlə üstünlük təşkil etsə də, dövlətçiliyin davamlılığı baxımından real imkanları müəyyən edən faktor coğrafi məkan və regiondaxili münasibətlərdir. Məsələ ideoloji deyil, struktur xarakter daşıyır: dənizə çıxışı olmayan, tranzit marşrutları qonşularının siyasi münasibətlərindən asılı olan Ermənistan iqtisadiyyatında daimi "əlavə xərc" problemi ilə üz-üzədir. Nəqliyyat xərclərinin yüksəkliyi, bazarlara çıxışın məhdudluğu və təchizat zəncirlərinin zəif elastikliyi ölkəni həssas vəziyyətdə saxlayır.

ardı səhifə ⇨ 7



## Qarsdan Naxçıvana polad körpü salınacaq



### *Yeni dəmir yolu ilə ildə 5,5 milyon sərnişin və 15 milyon ton yük daşınacaq*

**Avqustun 22-də Qars – İğdır – Dilucu dəmir yolunun tikintisinə start veriləcək. Bu barədə Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu məlumat verib.**

ardı səhifə ⇨ 9

## Diaspor Ermənistanı yeni böhrana sürükləyir



Səhifə ⇨ 8

## Azərbaycan ABŞ-da Dünya birincisi oldu




Səhifə ⇨ 11

## 70 yaşlı "Bəxtiyar"



Səhifə ⇨ 10

## Ukraynanın "qırmızı xətləri"



Səhifə ⇨ 11

# Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin özülü qoyulub




**Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.**

Azərbaycan Respublikası Prezidentinin Kəlbəcər rayonunda xüsusi nümayəndəsi Bəşir Hacıyev kompleksdə yaradılacaq şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, bu yaşayış kompleksinin ərazisi 10 hektara yaxın olacaq. Buraya ümumilikdə 807 ailənin köçürülməsi nəzərdə tutulur. Yaşayış kompleksində 128 birotaqlı, 304 ikiotaqlı, 293 üçotaqlı, 82 dördotaqlı olmaqla 807 mənzil inşa ediləcək. Burada 4 mərtəbəli 26 binanın inşası planlaşdırılır. Binaların 1-ci mərtəbəsində məişət və ticarət obyektləri yaradılacaq. Yaşayış kompleksində sakinlərin rahatlığı və asudə vaxtlarının səmərəli təşkili üçün idman meydançaları, velosiped yolları salınacaq, istirahət guşələri, söhbətgahlar, uşaqlar üçün oyun guşələri inşa olunacaq. Binaların hamısı daimi su, elektrik enerjisi və yüksəksürətli internetlə təchiz ediləcək. Ərazidə, həmçinin geniş miqyasda yaşıllıq zonalarının salınması nəzərdə tutulur.

# Kəlbəcərdə şəhər parkı da salınacaq



**Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər şəhər parkının təməlini qoyub.**

Şəhərin müfəssəl Baş planına uyğun olaraq layihələndiriləcək yeni park kompleksi təxminən 11 hektar ərazini əhatə edəcək. Bu sahənin təxminən 9 hektarında yaşıllıqlar salınacaq. Parkda rayonun ictimai və mədəni həyatında baş verən tədbirlərin təşkili üçün xüsusi zonalar, idman və sağlamlıq guşələri, həmçinin uşaqlar üçün əyləncə və ekstremal macəra sahələri yaradılacaq.

Layihəyə əsasən, parkın ərazisində yerüstü avtomobil dayanacağı, relsli xizək yolu, restoranlar, kafelər, amfiteatr və digər zəruri infrastruktur obyektlərinin inşası da nəzərdə tutulur.

Bir sözlə, burada həm şəhər sakinlərinin, həm də qonaqların asudə vaxtlarını mənalı və rahat keçirmələri üçün hərtərəfli şərait təmin olunacaq. Dağlarla əhatələnmiş, əsrarəngiz təbiəti ilə seçilən Kəlbəcər şəhərində inşa olunacaq bu yeni istirahət mərkəzi bölgənin gözəlliyinə yeni rəng qatacaq və turizm potensialını daha da gücləndirəcək.

# Prezident İlham Əliyev "Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın açılışında






**Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın açılışında iştirak edib.**

Kəlbəcər Azərbaycanın ən zəngin təbiətə malik bölgələrindən biri olmaqla yanaşı, arıçılıq sahəsində qədim və dəyərli ənənələri yaşadan diyarlarımızdandır. Rayonun dağlıq relyefi, nadir və çoxçeşidli flora örtüyü, eləcə də yüksək dağ çaylarının ətrafında formalaşan əlverişli mikroiqlim burada istehsal olunan balın həm dad, həm keyfiyyət, həm də müalicəvi xüsusiyyətlərinə müsbət təsir göstərən əsas amillərdir.

Arıçılıq Kəlbəcər əhalisinin əsas məşğulluq sahələrindən biri olub və bu peşə nəsildən-nəslə ötürülərək bu günə qədər qorunub saxlanılıb. Bu sahədə uzun illər fəaliyyət göstərmiş Sabir Mustafayevin ailə təsərrüfatı bunun bariz nümunələrindəndir. Vətən müharibəsindən sonra o, ailəsi ilə birgə doğma torpağına qayıdaraq təsərrüfatını yenidən qurub. Onların istehsal etdiyi bal Kəlbəcərin ən ucqar və səfalı yaylaqlarında bitən çiçəklərdən toplanır.

2021-ci ildə Prezident İlham Əliyevin Kəlbəcərə səfəri zamanı bu təsərrüfata baş çəkməsi və Kəlbəcər balı ilə bağlı söylədiyi fikirlər arıçılıqla məşğul olan ailələr üçün mühüm stimul və ruh yüksəkliyi yaradıb.

Bu diqqətin davamı olaraq, Kəlbəcər şəhərinin mərkəzində "Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası" fəaliyyətə başlayıb. Burada bal ilə yanaşı, propolis, arı südü, çiçək tozu, mum və digər təbii məhsullar təqdim olunur. Gələcəkdə bu məhsulların "Made in Azerbaijan" brendi ilə beynəlxalq bazarlara çıxarılması və onlayn satış platformasının yaradılması planlaşdırılır. Mağaza yalnız satış məkanı deyil, həm də Kəlbəcər balının tanıdılması, arıçılıq məhsullarının brendləşdirilməsi və bu sahənin inkişafı üçün platforma funksiyasını daşıyır.

Artıq 40 ildən çoxdur arıçılıqla məşğul olan Mustafayevlər ailəsi bu sahəyə dərin bağlılıqla yanaşır. Onlar ənənəni qorumaqla yanaşı, müasir üsulların tətbiqi ilə təsərrüfatı inkişaf etdiriblər. Ailənin gənc üzvlərinin də bu işə maraq göstərməsi təsərrüfatın davamlılığı baxımından mühüm əhəmiyyət daşıyır. Hazırda təsərrüfatda 400-ə yaxın arı ailəsi var və bu təsərrüfat ölkənin nüfuzlu ailə təsərrüfatlarından biri kimi tanınır.

Bu layihə təkcə arıçılığın inkişafı baxımından deyil, eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi dirçəlişin təmin olunması, ekoloji cəhətdən təmiz məhsulların istehsalı və regionun kənd təsərrüfatı potensialının gücləndirilməsi baxımından da mühüm əhəmiyyətə malikdir.

Açılışdan sonra Prezident İlham Əliyev Sabir Mustafayevlə söhbət etdi.

**Sabir Mustafayev**: Xoş gəlmisiniz, bizə şərəf vermisiniz. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev**: Bilirsən, mən balınızı da təbliğ edirəm. Həm özüm hər gün yeyirəm, həm də xarici qonaqlara göndərirəm.

**Sabir Mustafayev:** Bəli, bilirəm. Çox təşəkkür edirəm. Siz bizə böyük stimul verdiniz. Oğlum başqa sahəni seçmişdi, diplomat olmaq istəyirdi, beynəlxalq münasibətlər üzrə. Sizin gəlişinizdən, Kəlbəcər balı haqqında xoş sözlərinizdən sonra artıq bu sahəni seçdi və qərara aldı ki, Kəlbəcər balını xarici bazara çıxaracaq.

**Prezident İlham Əliyev**: Bu, artıq brend olacaq.

**Sabir Mustafayev:** Ermənilər 2019-cu ildə burada - Siz durduğunuz yerdə festival keçiriblər.

**Prezident İlham Əliyev**: Amma onlar burada yaşamırdılar.

**Sabir Mustafayev:** Az sayda yaşayırdılar. Bir il sonra "Dəmir yumruq" öz sözünü dedi.

**Prezident İlham Əliyev:** Əlbəttə.

**Sabir Mustafayev:** Ermənilər burada bir şənlik təşkil etdilər. Sizin Şuşada Cıdır düzündə, armudu stəkanda, özü də paxlava ilə çay içməyiniz ürəyimdən tikan çıxardı. Şənlik təşkil etdikləri bu yerdə Kəlbəcər balı ilə çay içməyiniz çox yaxşı olar.

**Prezident İlham Əliyev:** Bəli, gəl burada da şəkil çəkdirək.

**Sabir Mustafayev:** Bəli, çəkdirək. Təşəkkür edirəm. Çox sağ olun, bizə şərəf verdiniz. Allah Sizi qorusun. Allah şəhidlərimizə rəhmət eləsin.

**Prezident İlham Əliyev**: Sağ olun.

# 3-cü yaşayış kompleksinin də təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də Kəlbəcər şəhərində 3-cü yaşayış kompleksinin təməlini qoyub.**

Yaşayış kompleksinin ümumi ərazisi 7,6 hektar olacaq. Burada 4 və 5 mərtəbəli 29 bina tikiləcək. Kompleksdə 476 mənzilin inşası planlaşdırılıb ki, onlardan da 8-i birotaqlı, 176-sı ikiotaqlı, 169-u üçotaqlı, 123-ü isə dördotaqlı olacaq.

Buraya köçürüləcək ailələrin rahatlığı və məişət məsələlərinin həlli üçün kompleksdə bütün zəruri infrastruktur qurulacaq. Belə ki, burada məişət və ticarət obyektləri, futbol meydançası, istirahət guşələri, söhbətgahlar, uşaq oyun meydançaları, velosiped yolları, yerüstü avtomobil dayanacağı yaradılacaq. Binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin ediləcək. Ərazidə geniş abadlıq və yaşıllıq işləri görüləcək.

# President İlham Əliyev Kəlbəcər şəhərinin sakinləri ilə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib

**Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılan şəraitlə tanış olub, buraya köçən sakinlərlə görüşüblər. Dövlətimizin başçısı görüşdə çıxış etdi.**





## Prezident İlham Əliyevin çıxışı

– Əziz kəlbəcərlilər, Kəlbəcərə xoş gəlmisiniz!

Bu gün sizin həyatınızda tarixi bir gündür. Doğma Vətənə, doğma şəhərə 32 ildən sonra qayıdırsınız və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Biz ədaləti bərpa etdik, haqqımızı bərpa etdik və bugünkü tədbir bir daha onu göstərir ki, Azərbaycan xalqı iradəli xalqdır. Azərbaycan xalqı öz doğma torpağına bağlıdır və bütün çətinliklərə baxmayaraq, işğal dövründə biz nəinki inamımızı itirməmişik, hər birimiz - bütün xalq hər gün bu müqəddəs günü yaxınlaşdırırdı.

Dövlət sizin üçün burada gözəl şərait yaradıb. Kəlbəcər şəhəri indi dünyanın ən gözəl mənzərəli şəhərlərindən birinə çevrilir. Siz artıq birinci yaşayış kompleksində evlərlə təmin olunursunuz, amma inşaat işləri bununla bitmir. Bu gün təməlini qoyduğum növbəti yaşayış komplekslərində yaxın gələcəkdə sizin qohumlarınız, dostlarınız gəlib yerləşəcək. Birinci mərhələdə "Böyük Qayıdış" Proqramı çərçivəsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq. Təbii ki, lazım olan bütün digər infrastruktur layihələri də icra edilibdir. İşıq, su, təbii qaz çəkilib, yollar salınıb, minalardan təmizləmə işi aparılıb. İndi Kəlbəcər şəhərində gözəl məktəb tikilir və gələn il istifadəyə veriləcək. Ancaq builki dərs ilini kəlbəcərli uşaqlar modul tipli məktəbdə oxuyacaqlar.

Bu gün, o cümlədən ona görə tarixi bir gündür ki, ölkəmizin ən böyük rayonu olan Kəlbəcər və onun şəhəri artıq canlanır, buraya həyat qayıdır və əminəm ki, siz burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər ərzində ağır şəraitdə - çadırlarda, uyğunlaşdırılmış binalarda, uşaq bağçalarında, yataqxanalarda - müxtəlif yerlərdə yaşamısınız, həyatınız çox ağır olub.

Kəlbəcərin işğalı bizim üçün bütün başqa yaşayış məntəqələrimizin işğalı kimi böyük faciə idi. Ancaq Kəlbəcərin işğalı strateji nöqteyi-nəzərdən Azərbaycan üçün çox böyük problemlər yaradırdı. Çünki Ermənistanla ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi bağlantı yaradılırdı. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi artıq o bağlantını yaratmışdı və o vaxt "Laçın dəhlizi" adlandırılan yol faktiki olaraq bizim torpaqlarımızın gələcək işğalına yol açmışdı. Kəlbəcərin işğalı isə çox böyük bir coğrafi ərazi üzrə Ermənistanla keçmiş "Dağlıq Qarabağ" arasında coğrafi bağlantı yaratmışdır və beləliklə, digər torpaqlarımızın işğalına yol açmışdır. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi xəyanətkarlıq və satqınlıq siyasəti apararaq doğma diyarımızı qoruya bilməmişdir. Hələ 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi o vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində mümkün olmuşdur. Alınmaz qalamız Şuşa demək olar ki, ermənilərə təhvil verilmişdir.

Mənfur cütlük bundan istifadə edərək bir ay sonra məhz Şuşa və Laçın faciəsi üzərində hakimiyyətə gəldi, doğma diyarınızı qoruya bilmədi, ya da qorumaq istəmədi.

Kəlbəcərin 1993-cü il aprelin əvvəlində işğal altına düşməsi məhz ovaxtkı xəyanətkar rəhbərliyin bəd əməllərinin nəticəsi olmuşdur. Ondan sonrakı dövrü hamımız yaxşı xatırlayırıq. Uzun sürən danışıqlar heç bir nəticə verməmişdi, verə də bilməzdi. Çünki birincisi, Ermənistan bir qarış torpaq qaytarmaq fikrində deyildi və danışıqlarda, sadəcə olaraq, görüntü yaratmaq naminə iştirak edirdi. Bu məsələ ilə məşğul olmalı olan üç ölkə - Fransa, Rusiya və Amerika məsələni həll etmək əvəzinə, münaqişəni dondurmaq istiqamətində işlər aparırdı və faktiki olaraq erməni işğalına hüquqi don geyindirmək üçün dəridən-qabıqdan çıxırdı. Məhz buna görə münaqişə sülh yolu ilə həll olunmadı. Əgər Ermənistana qarşı o vaxt ciddi sanksiyalar tətbiq edilsəydi, əgər işğalçı dövlət böyük dövlətlər tərəfindən cəzalandırılsaydı, əlbəttə ki, Ermənistan bizim torpaqlarımızı sülh yolu ilə qaytara bilərdi və əminəm ki, qaytaracaqdı. Sadəcə olaraq, onlara qarşı zərrə qədər təzyiq göstərilmədi, əksinə, onlar üçün bütün imkanlar açılmışdı. Bəzi ölkələr onlara milyardlarla dollar dəyərində pulsuz silahlar verirdi. İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində məhv etdiyimiz və hərbi qənimət kimi götürdüyümüz Ermənistan ordusuna xaricdən verilən silahların qiyməti təqribən 5-6 milyard dollar dəyərindədir. Təbii ki, Ermənistanın bu qədər silah almaq üçün pulu yox idi. Bütün bu silahlar onlara pulsuz verilirdi, bir məqsədlə ki, işğal davam etsin, bir məqsədlə ki, azərbaycanlılar heç vaxt öz dədə-baba torpaqlarına qayıtmasınlar, bir məqsədlə ki, Ermənistanla Azərbaycan arasında bu münaqişə sülh yolu ilə həll olunmasın. Mən bunu dəfələrlə demişəm və bu, tam həqiqətdir. Mən 2003-cü ildən 2020-ci ilə qədər bu danışıqlarda iştirak etməyə məcbur idim. Demişdim ki, bu məsələni həll etmək mandatı olan ölkələr faktiki olaraq işğalı əbədi etmək istəyirlər. Biri silahlar, biri siyasi dəstək, biri isə digər imtiyazlar verirdi. Məhz buna görə məsələ öz həllini tapmırdı. Kiməsə elə gələ bilərdi ki, Azərbaycan xalqı bununla barışacaq, halbuki mən dəfələrlə demişdim ki, biz bu məsələ ilə heç vaxt barışmayacağıq. Hələ 2003-cü ildə prezident vəzifəsinə seçiləndə bunu demişdim, ondan sonrakı dövrlərdə dəfələrlə demişdim və nəinki demişdim, hər gün, hər saat biz bu müqəddəs Zəfər günümüzü yaxınlaşdırırdıq. Güclü iqtisadiyyat qurduq, beynəlxalq müstəvidə Ermənistanı işğalçı dövlət kimi ifşa etdik. Bir çox aparıcı beynəlxalq təşkilatlar bizim səylərimiz nəticəsində mövqeyimizi qəbul etməyə məcbur olmuşdur. Güclü ordu yaratdıq, ən müasir silahlar aldıq və gənc nəsil yetişdirdik. O gənc nəsil ki, Vətən müharibəsində sinəsini qabağa verib torpaqlarımızı düşməndən azad etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz bu Zəfərə görə onlara, onlar kimi 10 minlərlə Azərbaycan əsgər və zabitinə borcluyuq.

Azərbaycan dövləti və Azərbaycan xalqı bir yumruq kimi birləşdi və biz Ermənistanı cəmi 44 gün ərzində kapitulyasiya aktını imzalamağa məcbur etdik. 44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Biz hər gün irəli gedirdik. Bir dənə də olsun döyüş meydanını tərk edən olmamışdır. Bir dənə də olsun fərari olmamışdır. Yəni bu, xalqımızın yüksək keyfiyyətlərini göstərir və onu göstərir ki, bütün xalqımız və Silahlı Qüvvələr Vətən uğrunda ölümə getməyə hazır idi. Ermənistan ordusunda isə özlərinin dediklərinə görə 12 min fərari olmuşdur. Vətən müharibəsi başa çatanda Kəlbəcər, Laçın, Ağdamın böyük hissəsi hələ işğal altında idi. Ancaq biz kapitulyasiya aktı nəticəsində Ermənistanı məcbur etdik ki, bu bölgələri bizə qaytarsın və bunu etməyə məcbur olmuşdur. Yəni, Kəlbəcər bir güllə atılmadan azad edildi. Siz kəlbəcərlilər bu bölgənin relyefini, iqlimini çox yaxşı bilirsiniz. Mən də çox yaxşı bilirəm, çünki dəfələrlə burada olmuşam və əvvəlki dövrlərdə buraya Ömər aşırımından keçmişəm.



Kəlbəcəri 2020-ci ilin sonunda, - artıq qış başlamışdır, - hərbi yolla azad etmək böyük itkilərlə nəticələnərdi. Təbii ki, biz azad edəcəkdik. Çünki Ermənistan ordusunu biz o vaxt demək olar ki, məhv etmişdik. Ancaq onların güclü istehkamları var idi. O vaxt Ağdərə rayonu bizim nəzarətimizdə deyildi. Tək yeganə istiqamət Murov istiqamətindən idi və yenə də deyirəm, biz böyük itkilər verə bilərdik. Ona görə tarix bir daha göstərdi ki, 2020-ci il noyabrın 10-da müharibənin dayandırılması ən düzgün addım idi. Ancaq bununla bərabər, o vaxt hələ də torpaqlarımızın bir hissəsi nəzarətimizdə deyildi. O vaxtdan 2023-cü il sentyabrın 19-na qədər bizim qarşımızda duran əsas hədəf ölkəmizin suverenliyini tam bərpa etmək idi. O tarixi siz yaxşı xatırlayırsınız, həm dırnaqarası Laçın dəhlizini yox etmək və bunu Laçın-Xankəndi yoluna çevirmək, həm Ermənistan-Azərbaycan sərhədində Laçın istiqamətində nəzarət-buraxılış məntəqəsinin yaradılması, eyni zamanda, 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər önəmli strateji nöqtələrin götürülməsi, "Fərrux", "Qırxqız", "Sarıbaba" əməliyyatları - bütün bunlar şanlı tariximizdir və bütün bunlar məqsədyönlü siyasətimizin bir hissəsi idi. Təbii ki, o vaxt biz bir çox şeyləri dilə gətirmirdik, buna ehtiyac da yox idi. Ancaq hədəfə doğru gedirdik ki, bizim torpağımızda bir dənə də olsun separatçı qalmamalıdır. Separatizmin başı əzilməlidir, kökü kəsilməlidir və bunu da etdik. Cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində separatçı xunta kapitulyasiya aktına imza atdı. Öz saxta dırnaqarası respublikasının guya süquta uğramasını əks etdirən sənəd imzaladı.

Bizim üçün 2023-cü ilin 19-20 sentyabrı 8 noyabr qədər şərəfli və tarixi günlərdir. O vaxtdan bu yana Azərbaycan xalqı sülh şəraitində yaşayır və əminəm, bundan sonra da sülh şəraitində yaşayacaq. Bilirsiniz ki, Ermənistan-Azərbaycan normallaşması prosesi demək olar ki, başa çatıb və imzalanmış sənədlər bizim maraqlarımızı tam təmin edir. Biz istədiyimizə nail olmuşuq, mənfur Minsk qrupu artıq son günlərini yaşayır. Faktiki olaraq o, heç bir fəaliyyət göstərmirdi və göstərə də bilməzdi. Ancaq hüquqi cəhətdən mövcud idi, indi onun da sonu yaxınlaşır.

Ermənistanla sülh müqaviləsinin müəllifi də bizik, o bəndlərin tərtibatında da bizim mövqeyimiz hər zaman əsas götürülmüşdür. Bu sənədin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur. Bununla bərabər, bizim tarixi diyarımız olan Naxçıvanla quru bağlantısı da təmin edildi. 2020-ci ilin noyabrından son günlərə qədər biz təkidlə bu məsələni daim gündəlikdə saxlayırdıq və müxtəlif yollarla bu məqsədə çatmaq üçün səylər göstərirdik və nəhayət, biz buna da nail olduq. Artıq Ermənistan bu öhdəliyi də üzərinə götürmüşdür və ümid edirəm ki, yaxın bir neçə il ərzində biz qatarlarla və avtomobillərlə Azərbaycanın əsas hissəsindən Naxçıvana gedə biləcəyik. Eyni zamanda, bu, təkcə Azərbaycanın iki hissəsini bir-biri ilə birləşdirməyəcək. Bu, eyni zamanda, beynəlxalq nəqliyyat dəhlizinə çevriləcək. İndi Azərbaycan ərazisindən bir neçə nəqliyyat dəhlizi keçir və bu, əlbəttə ki, ölkəmizin önəmini artırır. Bir dəhliz də məhz bu istiqamət üzrə gedəcək. Artıq Zəngilana qədər dəmir yolunun inşası uğurla davam edir, yəqin ki, gələn il başa çatacaq. Biz indi Naxçıvan Muxtar Respublikasında dəmir yolunu tam müasirləşdirəcəyik. Ermənistan ərazisində də dəmir yolunun tikintisi nəzərdə tutulur. Yəni, Ermənistan bu öhdəliyi də üzərinə götürüb və bu, bizim növbəti tarixi uğurumuzdur.

Azərbaycan xalqı ən yüksək beynəlxalq müstəvidə öz böyüklüyünü bir daha göstərmişdir. Həm Vətən müharibəsi, həm antiterror əməliyyatı nəticəsində yaratdığımız yeni reallıqlar dünya tərəfindən qəbul edildi. Bu da çox vacib idi. Çünki Vətən müharibəsindən və xüsusilə 2023-cü ilin sentyabr əməliyyatından sonra Ermənistanın havadarları, müxtəlif ölkələr və dairələr bizə qarşı kampaniyaya başlamışdılar. Azərbaycanı cəzalandırmaq, Azərbaycana qarşı sanksiyalar tətbiq etmək və digər səylər göz önündə idi. Düzdür, onların heç biri həyata keçmədi. Bizim kifayət qədər güclü tərəfdaşlarımız var və beynəlxalq təşkilatlar çərçivəsində mövqeyimiz hər zaman ədalətli mövqe kimi qəbul olunub. Çünki biz öz torpağımızda müharibə aparmışıq. Bəzi başqa ölkələr kimi heç bir ölkənin torpağını zəbt etməmişik, etnik təmizləmə aparmamışıq, heç bir ölkənin şəhər və kəndlərini viran qoymamışıq. Biz öz torpağımızda döyüşmüşük, düşməni böyrü üstə qoymuşuq və ərazi bütövlüyümüzü bərpa etmişik, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında. Ancaq buna baxmayaraq, Ermənistana himayədarlıq edən ölkələr bizə qarşı daim hərəkətdə idi və Vaşinqton şəhərində, dünyanın bir nömrəli ofisində imzalanmış sənədlər bütün bu səylərə də son qoydu.

Yəni, dünya birliyi, beynəlxalq aləm bizim Qələbəmizi və yeni reallıqları tam qəbul etmişdir və bu da özlüyündə tarixi hadisədir. Çünki sirr deyil ki, həm işğal dövründə, həm də müharibə dövründə Ermənistanı dəstəkləyən böyük dövlətlər bizə hər zaman böyük problemlər yaradırdı və yarada bilərdi. Bizim gücümüz, xalqımızın iqtidarla bir yerdə olması, hərbi Zəfərimiz, cəmiyyətdəki ovqat, vətənpərvərlik ruhu - bütün bu amillər bütün dünyaya göstərdi ki, hər kəs bizimlə hesablaşmalıdır və bizimlə hesablaşmayan nəticədə peşman olur. Bunu Ermənistan-Azərbaycan müharibəsi, Vətən müharibəsi, müharibədən sonrakı dövr göstərmişdir və bunu bugünkü reallıqlar da göstərir.

Azərbaycan ləyaqətli ölkədir, güclü ölkədir, heç kimə məsləhət görmürük ki, nə vaxtsa bizə qarşı hansısa bəd əməllər haqqında düşünsün. Hər halda son 80 il ərzində dünyada Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır. İndi dünyada gedən prosesləri görürsünüz. Müxtəlif yerlərdə toqquşmalar, müharibələr, hərbi cinayətlər baş alıb gedir. Amma heç kim tam qələbə qazanmayıb. Müharibələr davam edir, daha böyük coğrafiyanı əhatə edir və yəqin ki, davam edəcək. Yəni, bax, bu siyasi məsələlərin inkişafı bunu göstərir. Tək yeganə ölkə bizik. Yeganə xalq bizik ki, tam Qələbə qazandıq, mütləq Qələbə qazandıq. Düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdik və eyni zamanda, sülhün təminatçısı da Azərbaycandır.

Biz düşməndən qisasımızı döyüş meydanında aldıq. Biz bir daha xalqımızın böyüklüyünü göstərdik. Onların bizə etdiklərini biz onlara etmədik. Halbuki onların etdikləri heç vaxt yaddaşımızdan silinməyəcək. O cümlədən kəlbəcərlilərə qarşı edilən hərbi cinayətlər, soyqırımı, Xocalı soyqırımı, digər bölgələrdən olan vətəndaşlarımıza qarşı düşmənçilik, ədavət və vəhşilik heç vaxt yaddaşımızdan silinməyəcək və silinməməlidir. Bunu mən həm müharibəni qazanan ölkənin Ali Baş Komandanı kimi və bu gün Ermənistanla, məğlub edilmiş Ermənistanla sülh prosesinin iştirakçısı kimi deyirəm. Biz istəmirik ki, müharibə olsun. Biz sülh istəyirik. Ancaq heç vaxt o qanlı tarix yaddaşımızdan silinməməlidir, heç vaxt şirin sözlərə aldanmamalıyıq, ayıq olmalıyıq. Təbii ki, bizim Silahlı Qüvvələrimiz hər an, hər gün dövlətimizin maraqlarının, təhlükəsizliyin keşiyindədir. Biz mümkün olan təhlükə mənbələrini izləyirik, görürük və görəcəyik. Biz hərbi gücümüzü artırırıq. İkinci Qarabağ müharibəsindən sonra həm Xəzər dənizindəki, həm də bütün digər silahlı qüvvələrimizin inkişafı ilə əlaqədar minlərlə, - sayını demək istəmirəm, amma böyük sayda, - xüsusi təyinatlı qüvvələrimizin say tərkibini artırmışıq, yeni komando qüvvələri yaradılıb.

Pilotsuz uçuş aparatlarının ən müasirləri, yeni artilleriya sistemləri ölkəmizə gətirilib. İndi yeni döyüş təyyarələri üzrə kontraktlar bağlanıb və mövcud olan təyyarələr tam müasirləşdirilib. Biz hər an müharibəyə hazır olmalıyıq. Çünki dünyada proseslər elə istiqamətdə gedir ki, bilmək olmaz sabah nə olacaq. Bizim təhlükəsizliyimizin qarantı biz özümüzük - dövlət, xalq və Silahlı Qüvvələrimiz. Ona görə, əgər kiminsə xəstə ağlına Azərbaycana qarşı hər hansı bir təxribat törətmək gələrsə, məncə, yenə də peşman olacaq. Biz isə bundan sonra müzəffər xalq və müzəffər, qalib dövlət kimi yaşayacağıq.

Bizim işimiz quruculuqdur. Onlar bütün şəhər və kəndlərimizi viran qoyublar. Kəlbəcər şəhərində bir dənə salamat bina qalmamışdır. Kəlbəcərin heç bir kəndində bir dənə də bina qalmamışdır. O, vəhşilik idi. O, insanlığa sığmayan hərəkət idi və bunu bir nəfər yox, 10 nəfər yox, kütləvi surətdə edirdilər. Onlar gərək bu məsələlərlə məşğul olsunlar, hansı cəmiyyətdə yaşayır Ermənistan? O cəmiyyət ki, işğal dövründə talançılığı özü üçün əsas gəlir mənbəyi etmişdir. Bu cəmiyyət xəstədir və mən bunu açıq deyirəm. Mən heç kimi təhqir etmək istəmirəm. Biz onlara nə etmişik ki, nə pislik etmişik ki, bu qədər vəhşiliklə üz-üzə qalaq?! Bütün şəhər və kəndlər dağıdılıb, məscidlər dağıdılıb, təhqir edilib, insanlar qətlə yetirilib, öldürülüb, yandırılıb. Hətta İkinci Qarabağ müharibəsindən sonra bizdən vasitəçilər tərəfindən vaxt istəmişdilər, burada öz şələ-şülələrini yığmaq üçün. Biz hətta vaxt da verdik onlara. Nə etdilər? Yandırdılar, ağacları qırdılar. İnsan bunu edər? Axı, bunu təkcə separatçıların başçıları etməyiblər. Kütləvi surətdə ediblər. Yəni, biz bilməliyik ki, kiminlə üz-üzəyik, bizim qonşumuz kimdir. Keçmişimizi heç vaxt unutmamalıyıq və ayıq olmalıyıq. Əminəm ki, bütün bu amillər imkan verəcək ki, üstünlük hər zaman bizdə olsun. Bu gün bunu yenə də deyirəm, biz qalib xalq kimi bəyan edirik. Biz o pisliyi, vəhşiliyi unutmayacağıq. Ancaq biz bundan sonra heç kimlə müharibə aparmaq fikrində deyilik. Əgər bizə qarşı hər hansı bir təhlükə çıxarsa, onda yenə də bizim "dəmir yumruğ"umuzu hər kəs görəcək. Bu gün bu gözəl binaların ətrafında bizim görüşümüz də çox böyük rəmzi məna daşıyır. Onlar buranı dağıdıblar, biz isə qurub-yaratmışıq və sizi bu münasibətlə bir daha təbrik edirəm. Rahat yaşayın, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

*

**Prezident İlham Əliyev:** Kim söz demək istəyir?

**Sakin Cəlil Alıyev:** Cənab Prezident, cənab Ali Baş Komandan, çox hörmətli Mehriban xanım, Sizi kəlbəcərlilər adından salamlayırıq. Doğma yurdumuza xoş gəlmisiniz! Bütün çıxışlarınızı diqqətlə izlədik, bəyənirik, alqışlayırıq. Bütün bu hadisələrin qəhrəmanı Sizsiniz. Bir daha Sizə təşəkkür edirik. Bilirik ki, Kəlbəcər xalqı, Kəlbəcər camaatı aşıqlar diyarıdır, şairlər diyarıdır. Ona görə də gözəl şairimiz Sücaət 32 il bundan qabaq yazırdı:

***Sücaət, neyləyək, baxt belə baxtdır,***
***Darıxma, hər şeyi həll edən vaxtdır.***
***Bir gün gülə-gülə qayıdacaqdır,***
***Ağlaya-ağlaya köçən Kəlbəcər.***

Bu hadisələrin səbəbkarı Sizsiniz. Sizə təşəkkür edirəm. Sağ olun, var olun.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm, sağ olun.

**Cəlil Alıyev:** Həmişə Sizin yanınızda durmalıyıq. Bir olmalıyıq. Yumruq kimi birləşməliyik. "Böyük Qayıdış"ı başa çatdırmalıyıq. Mənim qızım Hökumənin sözü olmasın, hər şey yaxşı olacaq. Bir daha təşəkkür edirəm Sizə.

**Sakin Fənarə Sadıqova:** Möhtərəm Ali Baş Komandan, cənab Prezidentimiz, çox sevimli əzizimiz Mehriban xanım, əziz qonaqlar və həmvətənlərim. Bu gün illərdən sonra böyük qürur hissi ilə doğma yurdum cənnət Kəlbəcərimdə Sizi salamlayıram. Dahi Ulu Öndərimizin başladığı siyasəti Siz məharətlə, qətiyyətlə, yuxusuz gecələrinizə, gərgin günlərinizə baxmayaraq davam etdirərək bəşəriyyətdə analoqu olmayan Zəfər tarixi yazdınız. İşğal olunan torpaqlarımızı geri qaytardınız, cənab Prezident. Bir sıra çox vacib sazişlərə imza atdınız. Biz Sizinlə qürur duyuruq. Biz həmişə Sizin yanınızdayıq. Allah Ulu Öndərimizə rəhmət eləsin ki, Sizin kimi ləyaqətli davamçı qoyubdur. Sizin prezidentlərlə görüşlərinizi hər dəfə televiziyada izləyərkən şux duruşunuzu, natiqliyinizi böyük həyəcan və sevinc hissi ilə müşahidə edirik – Siz əsl poliqlotsunuz. Siz müxtəlif dillərdə çox natiq danışırsınız, onların özlərindən də gözəl olur. Biz bununla qürur duyuruq. Bu istedad Allah tərəfindən hər prezidentə verilmir.

*(ardı 4-cü səhifədə)*

# Prezident İlham Əliyev Kəlbəcər şəhərinin sakinləri ilə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib





**(əvvəli 3-cü səhifədə)**

Cənab Prezident, mən bir haşiyəyə çıxmaq istəyirəm. Üzrlü sayın, mən bunu deməsəm, atamın ruhu məni bağışlamaz. Hələ 1992-ci ildə hərc-mərclik, özbaşınalıq baş alıb gedəndə sadə sürücü olan atam, - o Kəlbəcərdə yaxşı insan kimi tanınırdı, - bu hadisələrdən çox narahat idi. Atam gedib, - o vaxt Ulu Öndərimiz Ali Sovetin sədri idi,- öz adından ona teleqram vurur ki, Azərbaycan batır, Siz burada lazımsınız. Ulu Öndərimiz 1998-ci ildə prezident seçiləndə atamın çıxışını verirlər. Sonra Prezidentimiz bayrağı öpür və kürsüyə qalxır. O, mənim atamdır. Çox əfsuslar olsun ki, atam Şuşanın alındığı gün dünyasını dəyişdi.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin!

**Fənarə Sadıqova:** Allah ölənlərimizə rəhmət eləsin. Atalarımızın ruhu şaddır bu gün. Ulu Öndər Sizin kimi layiqli övladı yerində qoyub gedib. Bu gün mənim atamın da ruhu şaddır, biz bu arzumuza çatmışıq. Doğma Kəlbəcərimizdə, eləcə də Qarabağda böyük quruculuq işi gedir. Bunu Siz edirsiniz. Biz Sizə minnətdarıq. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı diləyirik. Möhtərəm Prezidentimiz, biz Sizə bu ağır işinizdə, bu fəaliyyətinizdə uğurlar, ailənizə, özünüzə cansağlığı arzulayırıq. Biz həmişə Sizin arxanızdayıq. Sizin dediyiniz kimi, "Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

**Prezident İlham Əliyev:** Sağ olun, xoş sözlərə görə təşəkkürümü bildirirəm.

Kəlbəcər ölkəmizin ən gözəl rayonlarından biridir. Hər dəfə buraya gələndə Mehriban xanım və mən maşından izləyirik və bir-birimizə deyirik ki, nə gözəl diyardır, nə gözəl mənzərədir. Bunun dünyada tayı-bərabəri yoxdur. Amma siz də yaxşı bilirsiniz ki, Kəlbəcər həmişə ucqar rayon sayılırdı, çünki yollar yox idi. Yüz il bundan əvvəl, ümumiyyətlə, yol yox idi, ancaq atlarla hərəkət etmək mümkün idi. Ondan sonra sovet hakimiyyəti dövründə çəkilmiş o yollar da çox təhlükəli idi, ensiz idi. Biz Mehriban xanımla işğaldan sonra ilk dəfə Kəlbəcərə, təbii ki, Ömər aşırımından gəldik. O vaxt o yol da demək olar ki, yox idi, bir cığır idi və həm də çox təhlükəli idi. Amma o qədər əzəmətli mənzərə ilə üzləşdik ki, çətinlik heç özünü hiss etdirmirdi. Göygöldən gələndə Ömər aşırımından hər dəfə aşağıya baxarkən bu təbiətə valeh olurduq. Eyni zamanda, mən o vaxt dərhal göstəriş verdim ki, biz mütləq Gəncə istiqamətindən Kəlbəcərə müasir yol çəkməliyik. Çünki bilirsiniz ki, o vaxt biz Ağdərə-Kəlbəcər yolundan istifadə edə bilmirdik. Ona görə dərhal işlər başlandı və bu gün biz Mehriban xanımla Kəlbəcərə gələndə daha Ömər aşırımından yox, ilk dəfə olaraq tuneldən keçdik. Bu da uzunluğuna görə Avropada beşinci tuneldir. Təxminən 12 kilometr uzunluğunda ən böyük tunel. Amma yol boyunca beş tunel artıq var. Ən uzun tuneli də biz bu gün açdıq. Düzdür, hələ yəqin ki, yeddi-səkkiz ay vaxt lazım olacaq ki, onun içərisi də tam düzəlsin. Ondan sonra Kəlbəcərdən Gəncəyə, Göygölə getmək çox rahat olacaq. Yəni, biz Kəlbəcəri ölkəmizin qərb bölgəsi ilə birləşdiririk.

Digər yol, - onu da biz indi inşa edirik, - Ağdərə-Kəlbəcər yoludur. O da Naftalandan gələn yoldur. O yol olub, işğal dövründə işğalçılar istifadə ediblər. Mən o yol ilə də gəlmişəm. O da çox narahat yoldur. Kələ-kötür yoldur. Ona görə biz o yolu da genişləndiririk, düzəldirik.

Üçüncü istiqamət isə Kəlbəcər-Laçın yoludur. Mən o vaxt Göygöldən Kəlbəcərə, Kəlbəcərdən ta Laçına qədər getmişdim. Mən ömrümdə bunun kimi təhlükəli yol görməmişdim və siz də o yolu yəqin ki, xatırlayırsınız. İndi biz o yolu da dördzolaqlı tunellərlə, körpülərlə tamamilə yeni görkəmə salırıq. Laçının Qorçu kəndində beynəlxalq hava limanı da istifadəyə verilib. Biz o yerin seçilməsində də çətinlik çəkirdik. Çünki Kəlbəcərdə və Laçında bir dənə də düz yer tapa bilməmişdik ki, orada uçuş-enmə zolağı inşa edilsin. Bir dənə də düz yer yoxdur. Amma mən istəyirdim ki, aeroport həm Kəlbəcərə, həm Laçın şəhərinə yaxın olsun. Ona görə o yer seçildi. Dedilər ki, burada da bunu etmək mümkün deyil, gərək dağları kəsək. Dedim kəsmək lazımdırsa, kəsək. Əminəm ki, bu aeroport sayəsində bura gələnlər üçün çox gözəl bir turizm mərkəzi olacaq. Yəni, üç istiqamətdən yol, - Gəncə, Laçın, hətta Zəngilandan ta Kəlbəcərə qədər, bir də Naftalan, Ağdərə, Sərsəng, Kəlbəcər, - üç tərəfdən rahat əlaqələndirmə olacaq və əlbəttə ki, bu, bölgənin canlandırılması üçün böyük imkanlar yaradacaq: iş adamları, hotellər, turizm kompleksləri. Yəni, planlarımız çox böyükdür. Mən artıq bəyan etmişdim ki, biz kanat yollarını da çəkməyə başlayırıq. Birincisi, Laçında. Siz Laçın şəhərini də yaxşı tanıyırsınız, Həkəri çayından da Laçının yuxarı məhəlləsinə məsafə böyükdür. Həm də hündürlük fərqi də böyükdür. Laçın şəhərində kanat yolu yəqin ki, gələn il hazır olacaq. İkinci kanat yolu isə Xankəndi-Şuşadır, onun da təməlini qoyduq. Üçüncü kanat yolu da Kəlbəcərdə olacaq. Onun da yerinə baxmışıq. Bura çox gözəl mənzərəli yerlərdir, həm də cənnətdir. Amma buranı cənnət etmək üçün gərək bax, belə gözəl şərait olsun. Bunu da biz edirik. Ona görə bir daha sizi təbrik edirəm. Xoşbəxt yaşayın, cansağlığı arzulayıram. Sağ olun.

*

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

*

**Sakin Hikmət Şahmuradov:** Çox sağ olun, cənab Prezident, təşəkkür edirəm, minnətdaram. İcazənizlə, cənab Prezident, Sizə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Sizin çıxışlarınıza hər zaman diqqətlə qulaq asmışıq. Sizi fəxarətlə izləyirik, cənab Prezident. Mən Sizi sülhün, xoşbəxtliyin banisi kimi tanıyıram. Mən ümidvaram ki, Sizin bu missiyanız dünyada öz sözünü deyəcək və bəşəriyyət Sizdən örnək götürərək sülhü bərqərar edəcək. Dünyamız da, Azərbaycanımız da xoşbəxt, əmin-amanlıq şəraitində yaşayacaq.

**Sakin Fənarə Sadıqova**: Allah Sizi və sevdiklərinizi qorusun. Tunel üçün də xüsusi təşəkkürümü bildirirəm, var olasınız.

**Prezident İlham Əliyev**: İndi Gəncəyə buradan, Kəlbəcərdən yəqin ki, 1 saat yarıma gedəcəksiniz. Bir məsələni də demək istəyirəm. Bu gün tunelin açılışını edəndə bir



göstəriş də verdim. İndi onun üzərində işləyəcəklər ki, Toğanalıdan ta Gəncəyə qədər də baxsınlar, biz o yolu da qısaldaq, çünki o yol da bir az narahatdır. Orada da bəlkə bir yox, bir neçə tunel inşa ediləcək. O olarsa, onda Gəncədən Kəlbəcərə rahat 1 saat, 1 saat 10 dəqiqəyə gəlmək mümkün olacaq.

**Sakin Fənarə Sadıqova**: Necə deyək, Siz çox namümkünü mümkün etdiniz. Var olun!

Mehriban xanım, istəyərdim Sizi qucaqlayım. Biz Sizi sevirik, Allah balalarınızı qorusun, Allah Sizə uzun ömür versin, var olun, biz Sizi çox sevirik.

*

Sonra birgə foto çəkdirildi.

*

**Sakin:** Qoy hər zaman Azərbaycan bizi uğurları ilə sevindirsin. Bütün əmin-amanlıq, xoşbəxtlik həmişə xalqımızla olsun.

**Prezident İlham Əliyev:** Köçkünlük dövrü bitdi. İndi burada yerləşirsiniz. O biri yaşayış kompleksləri də tikiləcək. Bura gözəl bir şəhər olacaq.

**Sakin:** Sizin rəhbərliyinizlə. İnşallah. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Sovet vaxtında buranın əhalisi nə qədər idi?

**Sakin:** Şəhərin əhalisi 7-8 min nəfər idi.

**Prezident İlham Əliyev:** 7-8 min. İndi bu dörd yaşayış kompleksində 10 min nəfər yaşayacaq.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Yəni, ovaxtkından daha çox. Amma gələcəkdə əlbəttə ki, daha çox. Sən işğal dövründə harada yaşamısan? Bakıda?

**Sakin:** Bəli.

**Prezident İlham Əliyev:** İstisu indi məşhurlaşır. Prezidentlərə göndərirəm. Amerikaya da aparmışam özümlə.

**Qadın sakin:** Mən Sizə təşəkkürümü bildirirəm. Atam 1993-cü ildə şəhid olub.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Qadın sakin:** Bu gün Sizinlə, ailə üzvlərinizlə, dövlətimizlə fəxr edirəm. Ona görə ki, atamın şəhid olduğu bu torpağa mən bu gün Sizin sayənizdə ayaq basa bilmişəm, gələ bilmişəm. Sizə minnətdarlığımı bildirirəm. Bütün xalqımız Sizinlə qürur duyur. Hər zaman var olasınız.

**Prezident İlham Əliyev:** Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qanı yerdə qalmayıb.

**Qadın sakin:** Qalmayıb, bəli, çox şükür.

**Prezident İlham Əliyev:** Onların qanını yerdə qoymadıq. Həm Birinci, həm İkinci Qarabağ müharibələrinin şəhidlərinin qisasını biz döyüş meydanında aldıq. Bu, bütün şəhid övladları üçün bir təsəllidir.

**Qadın sakin:** Bu gün biz qürur hissi ilə buradayıq, torpağımızdayıq. Sizin sayənizdə. Minnətdarıq Sizə.

**Mehriban xanım Əliyeva:** Siz də gəlin, bu tərəfdə dayanın.

**Qadın sakin:** Yanınıza keçmək olar?

**Prezident İlham Əliyev:** Bəli. İşğal dövründə harada yaşamısan?

**Qadın sakin:** Mən Göygöldə.

**Prezident İlham Əliyev:** Göygöldə?

**Qadın sakin:** Bəli. Arzu edirəm verdiyiniz bu açarlar xeyirli qapılar açsın, İnşallah.

**Prezident İlham Əliyev:** Bəli. Gəlin. Burada iş yerləri ilə bağlı da tədbirlər görülür. Burada həm yaşayış, həm iş yerləri olmalıdır.

**Qadın sakin**: İnşallah.

**Prezident İlham Əliyev:** Burada gözəl məktəb tikilir.

**Qadın sakin**: Bəli, Allah Sizi var eləsin.

**Sakinlər:** İnşallah, İnşallah, əsl vətənpərvərlər yetişsin.

**Qadın sakin:** Bu oğlan ikinci sinifdə oxuyurdu. İndi bu gün gözəl İstisuyumuzun laboratoriyasında işləyir.

**Prezident İlham Əliyev:** İndi orada işləyir?

**Sakin:** Bəli, orada işləyir. Mən yerimizlə, yurdumuzla, xalqımızla fəxr edirəm.

**Prezident İlham Əliyev**: İstisuyu da biz bərpa etdik, birinci layihələrdən biri idi. Özü də biləsiniz, sovet vaxtındakı İstisu ilə indikinin arasında böyük fərq var.

**Sakinlər:** Bəli.

**Prezident İlham Əliyev:** İndi laboratoriyadan keçirmişik, xarici mütəxəssislər baxıblar. Onun tərkibində bəzi maddələr var ki, standartlara uyğun deyildi, tam təmizləndi, indi dünyanın ən yaxşı suyu oldu.

**Qadın sakin**: Bəli, təmizləmədə iştirak edirəm.

**Prezident İlham Əliyev:** Siz də orada işləyirsiniz?

**Qadın sakin:** Bəli. Cənab Prezident, Sizinlə şəkil çəkdirmək olar?

**Prezident İlham Əliyev:** Bəli, gəlin.

**Kişi sakin:** Çox sağ olun.



**Prezident İlham Əliyev:** Sağ olun. Anandır?

**Qadın sakin:** Buraya gəlmişik, Allah qoysa, burada çalışacağıq.

**Prezident İlham Əliyev:** Məsələn, neçə dəqiqəyə gedirsən?

**Qadın sakin:** 15 dəqiqəyə çatıram.

**Prezident İlham Əliyev:** 15 dəqiqəyə. Gələn il hotel də istifadəyə veriləcək. Orada da yüzlərlə iş yeri olacaq.

**Qadın sakin**: Allah qismət eləsin.

**Prezident İlham Əliyev:** "İstisu" sanatoriyasını da dağıdıblar, görmüsünüz? Bilmirəm, getmisiniz ya yox. Amma indi necə gözəl tikilib, görmüsünüz?

**Kişi sakin**: Çox gözəldir.

**Prezident İlham Əliyev:** Gəlin, hamımız birlikdə şəkil çəkdirək.

**Kişi sakin**: Çox sağ olun, cənab Prezident. Allah Sizə ömür versin. Allah Sizi var eləsin.

**Qadın sakin**: Qızım gəlir, gəlsin onunla da çəkdirək?

**Mehriban xanım Əliyeva**: Gəlsin, əlbəttə. Balacanı da gətirib. Üçaylıq körpəsi ilə gəlib.

**Qadın sakin:** Birinci dəfədir Kəlbəcərə ayaq basır.

**Prezident İlham Əliyev:** Bəli, nə gözəl.

**Mehriban xanım Əliyeva:** Üç ayı oldu. Bu, Əli balamızdır?

**Qadın sakin**: Bəli.

**Mehriban xanım Əliyeva:** Əliş, gedək, görək.

**Qadın sakin**: Çox sağ olun, Allah sizlərə cansağlığı versin. Mehin, gəl də, istəmirdin Mehriban xanımla şəkil çəkdirmək?

**Digər qadın sakin:** Gəlirəm.

**Mehriban xanım Əliyeva:** Gör kimi gətirirəm? Əli balamızı.

**Prezident İlham Əliyev:** Gəl balaca, bir yerdə şəkil çəkdirək. Anası hansıdır?

**Mehriban xanım Əliyeva:** Nənə də gəlsin.

**Prezident İlham Əliyev:** Nənəsi haradadır?

**Mehriban xanım Əliyeva:** Nənə də buradadır.

**Qadın sakin:** Allah sizlərə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Adı Əlidir?

**Sakin:** Bəli, Əlidir.

**Qadın sakin:** Allah saxlasın.

**Mehriban xanım Əliyeva:** Allah saxlasın, böyük oğlan olsun.

**Qadın sakin:** Allah hamınıza cansağlığı versin.

**Digər qadın sakin:** Çox sağ olun, minnətdaram Sizə.

**Qadın sakin:** Bizim də Mehriban xanımla şəklimizi çək.

**Kişi sakin:** Müharibə qurtaran vaxt mən bir şeir yazmışdım. Onun axırıncı kupletini deyim.

*Adaşımdır Baş Komandan,*
*Saxlasın Ulu Yaradan,*
*Bu əsgərdən, bu ordudan,*
*İlham, tərif yaz dəftərə,*
*Bəyan olsun nəsillərə,*
*Əhsəndir bu hünərə,*
*Gəlin gedək Kəlbəcərə.*

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Qadın sakin:** Kitabı da gətirmişik, Sizə təqdim etməyə.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Həmişə bayraqların uca olsun, heç vaxt enməsin.

**Prezident İlham Əliyev:** Enməyəcək İnşallah. Ancaq biz qabağa gedəcəyik. Burada şəraitiniz necədir? Yaxşıdır?

**Qadın sakin:** Bəli, çox sağ olun.

**Prezident İlham Əliyev:** Bəli, mən də baxdım, çox gözəldir. Geniş otaqlardır, qaz da var. Sovet vaxtında burada qaz olmayıb.

**Qadın sakin:** Yox, olmayıb, məcburən meşələri qırırdıq.

**Prezident İlham Əliyev:** Bəli, meşələri qırırdılar. Buraya qaz çəkmək asan məsələ deyildi.

**Qadın sakin:** Çox çətindir.

**Kişi sakin:** Dağları yarıb gətirmək çox çətindir.

**Qadın sakin:** Görürük, neçə yerdə quruculuq işləri görürsünüz. Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** Olmalıdır, siz neçə il əziyyət içində yaşamısınız. Həm fiziki əziyyət, həm mənəvi əzablar çəkmisiniz.

**Qadın sakin:** Bəli, mənəvi əzablar çox çəkmişik.

**Prezident İlham Əliyev:** Çətin, çadır şəhərciyi. Öz yerindən didərgin düşmək çox ağır taledir. Özü də bir il yox, on il yox, otuz il.

**Kişi sakin:** 32 il.

**Prezident İlham Əliyev:** Bəli, 1993-cü ilin aprelindən çıxmısınızsa 32 il. Ona görə, sizin üçün ən gözəl şərait yaradılmalıdır. Bu da İsveçrə layihəsidir. İsveçrədəki şəhərlərə tam uyğundur. Bəli, həm memarlıq, həm də daxildəki dizayn baxımından. Bilirsiniz, İsveçrə dünyada insanın həyat keyfiyyətinə görə birinci yerdədir. Ona görə, biz Kəlbəcər üçün bunu seçmişik.

**Kişi sakin**: Bu havaya, bu iqlimə yaraşandır elə.

**Prezident İlham Əliyev:** Bəli. Necə də gözəldir, o tərəf, bu tərəf gözəl binalardır. Cansağlığı ilə yaşayın.

**Kişi sakin:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağlığınıza qismət.

**Kişi sakin:** Allah Sizi var eləsin.

**Qadın sakin:** Təşəkkür edirik. Allah Sizi qorusun.

# Kəlbəcərin Vəng kəndində "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarının açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 21-də Kəlbəcər rayonunun Vəng kəndində "AzərEnerji" ASC-nin "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarının açılışında iştirak ediblər.**

"AzərEnerji" ASC-nin sədri Baba Rzayev dövlətimizin başçısına və birinci xanıma stansiyalar barədə məlumat verdi.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaşıl enerji zonasına çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin qarşıya qoyduğu tapşırıqlara uyğun olaraq Kəlbəcər rayonunda 8,6 meqavatlıq "Aşağı Vəng" və 8,8 meqavatlıq "Nadirxanlı" kiçik su elektrik stansiyaları tikilib. Bu stansiyaları su ilə təmin etmək üçün Lev çayının Tərtər çayına qovuşmasından sonra baş suqəbuledici, eyni zamanda, Tutqu çayının Tərtər çayına qovuşan hissəsində ikinci suqəbuledici yaradılıb. Kaskad su elektrik stansiyaları silsiləsinə daxil olan bu stansiyalar üçün çətin relyefdə ümumilikdə 9300 metr uzunluğunda derivasiya borusu çəkilib. Çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğularla təchiz olunan suqəbuledicilərdə bütün ekoloji normalara riayət edilib. Hər iki stansiyada quraşdırılmış hidroaqreqatlar zərərli maddələrin suya qarışmasının qarşısını almaqla yanaşı, onun keyfiyyət göstəricilərində heç bir dəyişiklik etmədən suyu aşağı axarda yenidən çaya qaytarır.

Müasir avadanlıqlarla təchiz edilmiş stansiyalar ölkə enerjisisteminin mərkəzləşdirilmiş SCADA sisteminə inteqrasiya olunub. Burada istehsal edilən ekoloji təmiz yaşıl enerji ilə təxminən 25 min nəfər elektrik enerjisi ilə təmin olunacaq.

"Aşağı Vəng" və "Nadirxanlı" stansiyalarında il ərzində 48 milyon kilovat-saat elektrik enerjisinin istehsal edilməsi nəzərdə tutulur. Qənaət edilən təbii qazın həcmi 12,5 milyon kubmetr təşkil edəcək ki, bununla da il ərzində 23 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Kəlbəcər rayonunun 8 nəfər sakini stansiyalarda işlə təmin olunub.

"Çaykənd" kiçik su elektrik stansiyasının isə gücü 5 MVt-dır. Bu, "AzərEnerji" tərəfindən Kəlbəcərdə istismara verilən sayca on birinci yaşıl enerji obyektidir. Stansiya ölkənin ən böyük bolsulu çaylarından birinin - Tərtər çayının üzərində yeni yaradılmış baş suqəbuledicidən 8 min 500 metrlik derivasiya borusu ilə gələn su ilə təchiz olunur. Təxminən 7 min nəfəri ekoloji təmiz yaşıl enerji ilə təmin edəcək stansiyada "ətraf mühitə dost texnologiyalar" tətbiq ediləcək. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması ilə yanaşı, stansiyaya Bakıdan nəzarət etmək də mümkün olacaq. Stansiyanın enerjisistemə inteqrasiyası üçün 5 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti çəkilib. Stansiya ölkə enerjisisteminin mərkəzləşdirilmiş SCADA sisteminə inteqrasiya edilib. Stansiyada il ərzində 15 milyon kilovat-saat elektrik enerjisinin istehsalı, bununla da 3.2 milyon kubmetr təbii qaza qənaət edilməsi və 6 min ton karbon qazının atmosferə atılmasının qarşısının alınması nəzərdə tutulur. Burada 4 nəfər Kəlbəcər sakini işlə təmin olunub.

Prezident İlham Əliyev "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarının açılışını etdi.

Xatırladaq ki, dövlətimizin başçısının göstərişi ilə həyata keçirilən işlər nəticəsində Qarabağ və Şərqi Zəngəzurda əlavə 3 su elektrik stansiyasının istismara verilməsi ilə bu cür stansiyaların sayı ümumilikdə 38-ə, ümumi gücü isə 307 MVt-a çatdırılıb. Sistemli şəkildə tikilib istismar olunan bu stansiyalar artıq iqtisadiyyata, yaşıl enerjinin genişlənməsinə, ətraf mühitin qorunmasına öz töhfəsini verir. Bu günə qədər su elektrik stansiyalarında 1,5 milyard kVts yaşıl enerji istehsal olunub, 335 milyon kubmetr qaza qənaət edilib, 620 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Su elektrik stansiyaları azsulu dövrdə 80 MVt, bolsulu dövrdə isə 200 MVt-dan artıq gücdə 24 saat fasiləsiz yaşıl enerji istehsal edir.



# Ağdərənin Kolatağ kəndində fərdi evlərin və infrastrukturun bərpası ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 21-də Ağdərə rayonunun Kolatağ kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.**

Kənddə 140 fərdi ev olub, onlardan da 30-u yararsız, 110-u isə qismən yararlı olub. 26 fərdi ev artıq əsaslı bərpa edilib. Bu il oktyabrın sonunadək daha 26 fərdi evin bərpası nəzərdə tutulub, 2026-cı ildə isə 58 fərdi ev təmir və bərpa olunacaq. Bu il avqustun 15-də 26 ailə, ümumilikdə 89 nəfər doğma Kolatağ kəndinə qayıdıb.

Hazırda kəndin müasir sosial infrastrukturunun qurulması istiqamətində işlər davam edir. Belə ki, bir transformator və 1 kilometr uzunluğunda mövcud elektrik xətti təmir olunub, artezian quyusu bərpa edilib, 26 ev su ilə təmin olunub. Sentyabrda kəndin içməli su ilə təminatı tam başa çatdırılacaq. İndiyədək 10 min 600 poqonometr yeni qaz xətti çəkilib və əlavə olaraq 2800 poqonometr hissənin çəkilişi nəzərdə tutulub. Kənddə sakinlərin istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün müasir istirahət parkı salınıb. Burada bayraq meydanı, idman və uşaq oyun meydançaları, rekreasiya zonası və yaşıllıq zolağı yaradılıb.

Kolatağ kəndi Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxildir və Qarabağ silsiləsinin yamacında yerləşir. Kənd Qarabağ müharibəsinin başlandığı ilk günlərdən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Ordusu tərəfindən həyata keçirilmiş antiterror tədbirləri nəticəsində kənd işğaldan azad olunub.

*

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənd sakini Baxşalı Hətəmovun evində oldular.

**Prezident İlham Əliyev**: Salaməleyküm.

**Mehriban xanım Əliyeva:** Salam, xoş gördük.

**Qadın sakin:** Salam, bizim evimizdir.

**Prezident İlham Əliyev**: Necəsiniz? Neçə gündür gəlmisiniz?

**Baxşalı Hətəmov:** Bu gün beşinci gündür.

**Prezident İlham Əliyev:** Bəli, hələ bir həftə olmayıb. Buranın adı sovet vaxtı da Kolatağ idi?



**Baxşalı Hətəmov:** Bəli.

**Qadın sakin:** Salam, xoş gördük.

**Prezident İlham Əliyev**: Salaməleyküm. Ay, nə gözəl baladır.

**Mehriban xanım Əliyeva:** Adı nədir?

**Qadın sakin:** Zeynəb.

**Mehriban xanım Əliyeva:** Zeynəb neçə aylıqdır?

**Qadın sakin:** 15 günlükdür.

**Prezident İlham Əliyev:** 15 gün?

**Mehriban xanım Əliyeva:** 15 günlük, maşallah. Sənin adın nədir? Nə qəşəng qızsan sən. Gəl mənim yanıma.

**Baxşalı Hətəmov:** Cənab Prezident, nömrə çəkən gün anadan olub.

**Prezident İlham Əliyev:** Harada anadan olub?

**Baxşalı Hətəmov:** Ayaq Qərvənd qəsəbəsində.

**Prezident İlham Əliyev:** Orada qalırdınız?

**Baxşalı Hətəmov:** Bəli.

**Prezident İlham Əliyev:** İndi isə gözəl, mənzərəli bir əraziyə köçmüsünüz. Burada yaşamaq üçün hər şey var.

**Baxşalı Hətəmov:** Çox gözəldir, çox sağ olun, Allah Sizə dəyməsin, cənab Prezident.

**Prezident İlham Əliyev:** Buranın həyətyanı sahəsi də kifayət qədər genişdir. Bu qızın neçə yaşı var?

**Baxşalı Hətəmov:** İki yaşı var.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi, xoşbəxt yaşayın.

**Baxşalı Hətəmov:** Allah Sizin canınızı sağ eləsin.

**Mehriban xanım Əliyeva:** Gəlin, birlikdə şəkil çəkdirək.

**Baxşalı Hətəmov:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Gözəldir, əsl cənnətdir.

**Baxşalı Hətəmov:** Həqiqətən cənnətdir.

**Prezident İlham Əliyev:** Salamat qalın.

*

Daha sonra dövlətimizin başçısı və birinci xanım kənd sakini Rəfayət Musayevin evinə gəldilər.

**Prezident İlham Əliyev**: Salaməleyküm. Xoş gəlmisiniz.

**Qadın sakin:** Salam.

**Prezident İlham Əliyev:** Qayanın adı nədir?

**Rəfayət Musayev:** Sağsağan qayası.

**Prezident İlham Əliyev:** Yəqin ki, oraya yol da var.

**Rəfayət Musayev:** Meşə yoludur.

**Prezident İlham Əliyev:** Haradan, Xocalıdan?

**Rəfayət Musayev:** Əsas Xocalı ərazisinə düşür.

**Prezident İlham Əliyev:** Hə, Xocalı ərazisi.

**Qadın sakin**: Salam, çox sağ olun cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Salam. Artıq bir neçə gündür buradasınız? Neçə gündür? Bir həftə olar?

**Rəfayət Musayev:** Bir həftədir.

**Prezident İlham Əliyev:** Bir həftə. Burada həyatınız necə keçir?

**Rəfayət Musayev:** Çox gözəl, çox yaxşı.

**Prezident İlham Əliyev:** Ev də gözəldir. Gözəl təmir olunub.

**Rəfayət Musayev:** Bəli, çox gözəldir.

**Qadın sakin**: Təbiəti də gözəldir.

**Prezident İlham Əliyev:** Bəli, gözəldir, cənnət kimi bir yerdir.

**Qadın sakin**: Havası da təmizdir, çox qəşəngdir.

**Prezident İlham Əliyev:** Havası da təmizdir, hər tərəf dağdır, meşədir, çay da axır. Su da var. Hər şey var.

**Rəfayət Musayev:** Hər şey var, hər şey qaydasındadır.

**Prezident İlham Əliyev:** İndi bağ da, bostan da salacaqsınız.

**Rəfayət Musayev**: İnşallah gələn il gələndə görəcəksiniz. Arı təsərrüfatı ilə, arıçılıqla məşğulam.

**Prezident İlham Əliyev:** Bəli, arıçılıq çox yaxşıdır. Neçə arı ailəsi saxlayırsan?

**Rəfayət Musayev:** 250 arı ailəsidir, 300-ə yaxın da damazlıq təsərrüfatdır.

**Prezident İlham Əliyev:** Çox gözəl, təbrik edirəm sizi.

**Rəfayət Musayev**: Çox sağ olun.

**Mehriban xanım Əliyeva:** Sağ olun. Uğurlarınız çox olsun.

**Prezident İlham Əliyev:** Bir daha təbrik edirəm. Sağ olun.

**Qadın sakin**: Allah köməyiniz olsun. Çox sağ olun.

**Rəfayət Musayev**: Çox sağ olun, Allah Sizdən razı olsun.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərədə Vəngli və Kolatağ kəndlərinin sakinləri ilə görüşüblər





**Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Vəngli kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, kənd sakini Vəkil Mamedovun evinə baş çəkiblər.**

Sonra dövlətimizin başçısı və birinci xanım Vəngli və Kolatağ kəndlərinin sakinləri ilə görüşüb söhbət ediblər.

**Prezident İlham Əliyev**: Salam, xoş gəlmisiniz.

**Sakinlər**: Cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Mən bilirəm ki, Kolatağ və Vəngli kəndlərinə keçmiş köçkünlər artıq 5-6 gün bundan əvvəl gəliblər. Xoş gəlmisiniz.




**Sakinlər**: Çox sağ olun. Siz də xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Burada sizin üçün çox gözəl şərait yaradılıb. Mənzillər hamısı təmirli, şərait, həyatyanı sahələr, su, bütün infrastruktur, hər şey var. Ən önəmlisi də gözəl təbiət və Vətən torpağı. Bu münasibətlə sizi təbrik edirəm.

**Sakinlər**: Bəli, cənab Prezident, var olun.

**Prezident İlham Əliyev**: Bu gün Mehriban xanımla Kolatağ kəndində də olduq, indi burada - Vəngli kəndindəyik. Biz burada əvvəllər də olmuşuq. Keçən dəfə gələndə bu kənd bərbad vəziyyətdə idi. İndi buranı belə gözəl bərpa etdik, təmir etdik. Burada rahat yaşamaq üçün bütün şərait var.

**Sakinlər**: Allah Sizi qorusun, Azərbaycanın uzunömürlü Prezidenti, Sizi öpürük. Sizə cansağlığı, uzun ömür arzulayırıq. Allah Sizi qorusun! Başına dönüm. Gələn ayaqlarınıza qurban. Sizə gələn azar bizə gəlsin. Bu günə görə Allahımızdan çox razıyıq. Şükür bu günü bizə yaşatdınız, arzumuza çatdıq. Allah daim köməyiniz olsun!

**Kişi sakin**: Ulu Öndərimizin dediyi kimi, ata-baba torpaqlarımıza qayıtdıq.

**Prezident İlham Əliyev**: Allaha şükür, təbriklər.

**Qadın sakin**: Allah Sizi qorusun, cənab Prezident.

**Prezident İlham Əliyev**: Çox sağ olun. Burada, doğma torpaqda rahat, salamat yaşayın.

**Sakinlər**: Allah Sizə uzun ömür versin, bu xalqın, bu camaatın üstündən əskik eləməsin. Şükür bu günümüzə, dünya durduqca durasınız.

**Prezident İlham Əliyev**: Siz də sağ olun. Xoş gəlmisiniz.

**Kişi sakin**: Allah Sizi qorusun!

**Prezident İlham Əliyev**: Burada elə gözəl hava var ki, heç Bakıda belə hava yoxdur.

**Sakinlər**: Allah Sizi Azərbaycanın üstündən əskik eləməsin. Allah Sizə uzun ömür, cansağlığı versin. Dünya durduqca balalarınızla birlikdə var olasınız.

**Prezident İlham Əliyev**: Köçkünlük dövrü bitdi, getdi.

**Sakinlər**: Çox sağ olun, Allah Sizə uzun ömür versin. Allah köməyiniz olsun, Siz bizim alnımızdan ləkəni götürdünüz, şükür bu günümüzə.

**Prezident İlham Əliyev**: Uzun illər köçkünlük həyatı yaşamaq böyük əzabdır.

**Kişi sakin**: Çox zülmdür, zülm çəkmişik.

**Prezident İlham Əliyev:** Həm fiziki, həm mənəvi əzab. Torpaqları da biz döyüşərək aldıq. Heç kim onları bizə qaytarmadı.

**Sakinlər**: Allah o yumruğunuzu çox möhkəm eləsin. Allah Sizi Azərbaycanın üstündən əskik etməsin, amin. Uzun ömür, cansağlığı arzulayırıq.

**Prezident İlham Əliyev:** Sağ olun. Gəlin, birlikdə şəkil çəkdirək.

**Sakinlər**: Şükür bu günümüzə. Arzumuz idi, arzumuza çatdıq. İmişlidə, Kürdəmirdə yaşadıq.

**Prezident İlham Əliyev**: Orada da qaçqın düşərgəsində?

**Sakinlər**: Şəhərcikdə. Bizi dolandırmısınız. Başqa ölkələrdə köçkünlərə baxırıq, Sizə minnətdarıq. Siz bizə yaxşı baxmısınız, Sizdən hərtərəfli razıyıq. Uzunömürlü Prezidentimiz ol! Allahdan arzu edirəm "Dəmir yumruğ"unuz var olsun. Qarabağ Azərbaycandır! Yaşasın Prezidentimiz! Yaşasın Azərbaycan! Millətimiz sağ olsun! Yaşasın bizim Prezidentimiz!

**Prezident İlham Əliyev:** Sağ olun. Görünür, bu cavan qızlar işğal dövründə dünyaya gəliblər.

**Sakinlər:** Bəli, bəli.

**Gənc qız:** Bəli, cavan olsaq da, həmişə ürəyimiz Vətənlə döyünüb.

**Qadın sakin:** 1992-ci ildə buradan piyada getmişəm, nə zülmlə, nə zillətlə. İndi Allaha şükür, arzumuza çatdıq. Allah, Prezidentimiz İlham Əliyevi var elə, bizi bu günə çatdırdı. Tanrı, Mehriban xanımı var elə, dövlətimizi uca elə. Öpürəm Sizi. Allah ömrümdən kəsib Sizin ömrünüzə calasın.

**Prezident İlham Əliyev**: Birlikdə deyəkmi Qarabağ Azərbaycandır!?

**Sakinlər**: Qarabağ Azərbaycandır! Yaşasın bizim Lider! Allah köməyiniz olsun!

**Prezident İlham Əliyev:** Salamat qalın.

**Sakinlər:** Yaxşı yol.

*

Qeyd edək ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev 2023-cü il noyabrın 7-də Vəngli kəndində olublar.

Xaçın çayının sahilində yerləşən kənd Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxildir. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Ordusu tərəfindən həyata keçirilmiş antiterror tədbirləri nəticəsində kənd işğaldan azad olunub.

Kənddəki 391 fərdi evdən 52-si yararsız, 339-u isə qismən yararlı olub. 60 fərdi ev artıq əsaslı bərpa edilib, sentyabrın 1-dək daha 60 fərdi evin bərpası nəzərdə tutulub, 2026-cı ildə isə 219 fərdi ev təmir və bərpa olunacaq.

Bu il avqustun 15-də 22 ailə, ümumilikdə 83 nəfər doğma Vəngli kəndinə qayıdıb. Avqust ayının sonunadək isə daha 38 ailə (143 nəfər) bu kəndə köçürüləcək.

Hazırda Vəngli kəndində müasir sosial infrastrukturun qurulması istiqamətində işlər davam etdirilir. Belə ki, 4 transformator və 3 kilometr uzunluğunda mövcud elektrik xətti təmir edilib, əlavə olaraq 1,5 kilometr uzunluğunda xəttin çəkilməsi işləri görülür. Kənddə 60 ev su ilə təmin olunub, sentyabr ayının sonlarınadək kəndin içməli su ilə təminatı tam başa çatdırılacaq. Mövcud qaz xətti bərpa olunub, 3 min 500 poqonometr xəttin isə bərpası nəzərdə tutulub. Bundan başqa, kəndə yeni qaz xətti çəkilib və əlavə olaraq yeni hissənin çəkilişi planlaşdırılır.

Kənddə istirahət parkı salınıb. Sakinlərin istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün parkda hər cür şərait yaradılıb. Ərazidə bayraq meydanı, idman və uşaq oyun meydançaları, rekreasiya zonası və yaşıllıq zolağı salınıb.

***AZƏRTAC***



# Vaşinqton Bəyannaməsinin əks-sədası davam edir

**Üstündən iki həftə keçsə də, Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfəri və bu səfər zamanı Vaşinqtonda həm ikitərəfli, həm də üçtərəfli formatda əldə olunan tarixi uğurlar beynəlxalq gündəmdə müzakirə olunan mövzulardan biri olaraq qalmaqdadır.**

Azərbaycan liderinin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində son illərdə dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir. Həm regional, həm də beynəlxalq səviyyədə əldə edilən uğurlar ölkəmizin dünyada etibarlılığını, diplomatik nüfuzunu və strateji mövqeyini daha da möhkəmləndirməklə yanaşı, iqtisadi inkişafın sürətlənməsi üçün əlverişli şərait yaradır.



Qeyd etmək istərdik ki, ABŞ-ın dövlət başçısı Donald Trampın dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona işgüzar səfəri, burada keçirdiyi görüşlər, o cümlədən imzalanan sənədlər, sülh prosesinə ciddi təkan verən nəticələr, ilk növbədə, Azərbaycan–ABŞ münasibətləri üçün çox önəmli hadisədir. Ağ Evdə baş tutan ikitərəfli və üçtərəfli görüşlər iki ölkə arasında münasibətlərə yeni nəfəs verməklə yanaşı, iqtisadi və strateji tərəfdaşlıq baxımından yeni səhifə açdı. Vaşinqton təmasları, həmçinin Donald Trampın prezidentliyi dövründə qəsdən zəifləndilmiş ABŞ–Azərbaycan əlaqələrinin yenidən gündəmə gəlməsinə tarixi imkan yaratdı. Xüsusilə Donald Trampın və onun komandasının Azərbaycan haqqında fikirləri, onların ölkəmizə və onun başçısına olan səmimi, xoşməramlı münasibətini bütün dünya və Azərbaycan xalqı gördü. Təbii ki, yüksək səviyyəyə çatmış bu münasibətlər Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin növbəti təntənəsi, ölkəmizin böyük diplomatik uğuru sayılmalıdır.

Azərbaycan Prezidentinin Vaşinqton səfəri Azərbaycan–Ermənistan münasibətlərinin normallaşma prosesinə verdiyi pozitiv impulslar və konkret nəticələrlə əlamətdar oldu. Ən böyük nəticə kimi Ağ Evin dairəvi kabinetində keçirilən üçtərəfli görüşün nəticəsində şahid qismində ABŞ Prezidentinin iştirakı və şahidliyi ilə Azərbaycan və Ermənistan liderləri tərəfindən sülh sazişini paraflayan Birgə Bəyannamənin imzalanmasını qeyd etmək lazımdır. Bununla yanaşı, hər iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin və ATƏT-in Minsk qrupunun hüquqi ləğvi ilə bağlı qurumun fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubunun imzalanması da Bakının irəli sürdüyü sülh gündəliyinin reallaşması deməkdir.

Yəni, bu tarixi qərarlar, imzalanmış sənədlər Cənubi Qafqazda davamlı sülh, əməkdaşlıq və təhlükəsizliyin təmin olunması istiqamətində Azərbaycanın son beş ildə irəli sürdüyü təşəbbüslərin dünyanın "supergücü" tərəfindən dəstəklənməsinin və qəbul olunmasının göstəricisidir.

"Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması, eyni zamanda, bölgədə iqtisadi əməkdaşlığın gücləndirilməsi, nəqliyyat və tranzit imkanlarının genişləndirilməsi üçün yeni imkanlar açır. Amma Vaşinqton görüşündə İrəvanın diqqətinə bir daha çatdırıldı ki, yekun sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilməli, Azərbaycana qarşı ərazi iddialarının əks olunduğu müddəalar aradan aradan qaldırılmalıdır. Bunu Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə öz çıxışlarında və müsahibələrində qeyd edib. Ağ Evdə Azərbaycanın media nümayəndələrinə verdiyi müsahibədə "Ermənistan ev tapşırığını yerinə yetirməlidir" fikri məhz rəsmi İrəvanın konstitusiyada dəyişikliklər etməsi kontekstində söyləndi. Ümid edirik ki, Paşinyan hökuməti bu tapşırığın öhdəsindən çox qısa bir zamanda gələcək və biz Qafqazın ən uzunömürlü münaqişəsinin ömrünü başa vurmasının şahidi olacağıq.

Məhz Prezident İlham Əliyevin zərgər dəqiqliyi ilə düşünülmüş xarici siyasəti nəticəsində Donald Tramp ikinci dəfə ABŞ Prezidenti seçildikdən sonra Azərbaycanla dünyanın "supergücü" arasında münasibətlərin sağlamlaşdırılması üçün yeni imkanlar açıldı. İlham Əliyevin Vaşinqtona Donald Trampın dəvəti ilə səfər etməsi göstərir ki, Ağ Ev Azərbaycanla əlaqələrdə müsbət dönüşün yaranmasında maraqlıdır. Bu baxımdan Vaşinqtonda "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu"nun imzalanması əlaqələrin yeni mərhələyə qədəm qoymasının göstəricisi olmaqla yanaşı, iki dövlətin münasibətlərinin strateji tərəfdaşlığa doğru irəliləməsindən xəbər verir. Anlaşma Memorandumuna əsasən, qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının növbəti altı ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılması nəzərdə tutulur. Bu qrup çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bir sözlə, çoxvektorlu praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsi xüsusi əhəmiyyətə malikdir.

Vaşinqton görüşlərində Azərbaycanın əldə etdiyi uğurlar sırasında Donald Tramp tərəfindən "Azadlığı müdafiə Aktı"na bədnam 907 saylı düzəlişin icrasını dayandıran sənədin imzalanması da xüsusin qeyd olunmalıdır. Bu, eyni zamanda Tramp administrasiyasının Azərbaycanla əlaqələrə verdiyi dəyərin ifadəsidir.

Nəhayət, Vaşinqtonda qazanılan uğurlardan biri də Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz keçidin təmin edilməsi ilə bağlı qərarın verilməsidir. 44 günlük müharibədən sonra Azərbaycan Prezidentinin dəfələrlə bəyan etdiyi "Azərbaycanın əsas hissəsinin Naxçıvana quru yolla maneəsiz keçidi təmin edilməlidir" tələbi Ermənistan tərəfindən qəbul edildi və layihənin icraçısı qismində ABŞ şirkətinin cəlb edilməsi Bakı üçün məqbul variant sayılır. Bu faktın özü Azərbaycan diplomatiyasının böyük uğurudur.

Ümumilikdə, Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin inkişafında, eləcə də Azərbaycan–Ermənistan əlaqələrinin normallaşması yönündə atılan addımlar, dünyanın ən qüdrətli dövlətinin liderinin buna dəstəyi və şahidlik etməsi bir daha əldə olunan razılaşmaların önəmini ortaya qoyur. Məhz Ağ Evdə Prezident Donald Trampın iştirakı ilə imzalanan Birgə Bəyannamənin həm Azərbaycan və Ermənistan, həm bölgə, həm də dünya üçün böyük əhəmiyyəti var.

***Səbuhi GÜLMƏMMƏDOV,***
***Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru***

# TDT-yə inteqrasiya Ermənistanı dalandan çıxarar

(əvvəli 1-ci səhifədə)

Türkiyə və Azərbaycanla sərhədlərin uzun müddət bağlı qalması Ermənistanın ticarət yükünü Gürcüstan və İran üzərinə yükləyib. Bu isə həm qiymət dəyişkənliyi, həm də geosiyasi risklərin artması deməkdir. Bu model uzunmüddətli sabitlik gətirmir və istənilən böhran ssenarisində ciddi sistem riskinə çevrilə bilir.

Təhlükəsizlik müstəvisində də bənzər boşluq müşahidə olunur. Kiçik dövlətlərin balanslaşdırma, yaranana qoşulma və ya ehtiyatlı çoxvektorlu siyasət strategiyaları Ermənistan üçün gözlənilən nəticəni vermədi. Qərbin siyasi-normativ dəstəyi hərbi zəmanətə çevrilmədi, regional təhlükəsizlik isə qonşularla açıq kommunikasiyalar olmadan möhkəmlənə bilmədi. Nəticə etibarilə, Ermənistan həm iqtisadi asılılıqları dərinləşdirib, həm də sərt təhlükəsizlik zəmanətindən məhrum qalıb. Boşluq rasional şəkildə yalnız regiondaxili normallaşma ilə darala bilər: sərhədlərin açılması və iqtisadi əlaqələrin genişlənməsi qarşılıqlı asılılığı artıraraq risklərin qiymətini yüksəldir və münaqişə ehtimallarını azaldır.

İqtisadi baxımdan Ermənistanın ən ciddi məhdudiyyəti daxili bazarın kiçikliyi və miqyas iqtisadiyyatının yoxluğudur. Rəqabətqabiliyyətli ixrac kanallarının formalaşması yalnız üç istiqamət üzrə mümkündür: tranzit inteqrasiyası, enerji şəbəkələrinin sinxronizasiyası və sənaye kooperasiyası. Bu üç alətin hər biri Türkiyə və Azərbaycanla əməkdaşlıq olmadan miqyas qazanmır, nəticədə Ermənistan "kiçik bazar tələsi"ndə qalır.

Daxildəki siyasi-iqtisadi amil də dilemmanı kəskinləşdirir. Elita qrupları arasında strateji seçimlə bağlı rəqabət legitimlik uğrunda mübarizəyə çevrilib. Qısamüddətli perspektivdə tarixi narrativlər və identik siyasət ictimai rəyi formalaşdırır, lakin uzunmüddətdə həlledici faktor rifah gözləntiləri olur. Diasporanın maliyyə və lobbi dəstəyi isə nə tranzit dəhlizi, nə də sərt təhlükəsizlik təmin edə bilir. Buna görə də siyasi döngə nöqtəsi qaçılmaz olaraq iqtisadi nəticələr üzərindən formalaşır. İctimai rəy yalnız görünən faydalar – iş yerləri, qiymət sabitliyi, ixrac imkanlarının genişlənməsi kimi göstəricilər əsasında identik narrativdən rifah rasionalına keçə bilər.

Beynəlxalq institusional çərçivədə Ermənistanın qarşısında yeni imkan pəncərəsi açılır. Türk Dövlətləri Təşkilatı etno-linqvistik baza üzərində qurulsa da, funksional əməkdaşlıq zolaqları yaratmaqla özünü regional iqtisadi-siyasi platformaya çevirməkdədir. Təşkilatla münasibətlərə "hamısı və ya heç nə" prizmasından baxmaq əvəzinə, mərhələli və sektoral yanaşma Ermənistan üçün daha realistdir. Təhsil və rəqəmsal sahədə texniki əməkdaşlıq, gömrük prosedurlarında uyğunlaşma, enerji və logistika modullarının inteqrasiyası, risklərin idarə olunmasına xidmət edən siyasi dialoq kanalları – bütün bunlar ideoloji mübahisələri kənara qoyaraq funksional fayda əsasında əməkdaşlığa yol aça bilər.

Ssenari baxımından Ermənistanın qarşısında üç istiqamət görünür: tam regional



açılma, məhdud normallaşma və təcridin dərinləşməsi. Birinci variant iqtisadi və təhlükəsizlik baxımından ən rasional və dayanıqlı seçimdir. İkinci variant qeyri-müəyyənliyi uzadır və elita rəqabətini dövri böhrana çevirir. Üçüncü yol isə uzun müddətdə dövlətçilik dayanıqlığı üçün ən ciddi riskdir.

Beləliklə, Ermənistanın "qaçılmazlıq"la üz-üzə qalması mifoloji təsəvvür deyil, struktur reallığın diktəsidir. Coğrafi məkan, bazar ölçüsü, logistika iqtisadiyyatı və təhlükəsizlik asimmetriyası onu regiondaxili əməkdaşlığa itələyir. Bu trayektoriyanın ən yüksək mərhələsi gələcəkdə TDT ilə funksional yaxınlaşma ola bilər. Amma başlanğıc nöqtəsi ideologiya yox, praktik faydadır: açıq sərhədlər, ucuz nəqliyyat, sabit enerji və geniş bazara çıxış. Ermənistan üçün uzunmüddətli dayanıqlığı təmin edən yeganə strategiya məhz budur; alternativlərin hər biri ya baha başa gəlir, ya da davamlı deyil.

*

Türk Dövlətləri Təşkilatının (TDT) gələcək inkişaf trayektoriyası yalnız etno-linqvistik bağlılıqla izah oluna bilməz.



Təşkilat getdikcə daha çox funksional regionalizm modelinə yaxınlaşır. Bunun əsas səbəbi müxtəlif pillələrdə iştirak imkanlarının yaradılmasıdır: tam üzvlük dərin siyasi və iqtisadi koordinasiyanı tələb etdiyi halda, müşahidəçi və ya sektoral tərəfdaşlıq formatları daha çevik əməkdaşlıq imkanı verir. TDT öz identik əsasını qorumaqla yanaşı, qeyri-türk dövlətlər üçün də praktik fayda gətirən sektorlarda əməkdaşlıq qapısını açmasına şərait yaradır. Belə bir yanaşma, gələcəkdə təşkilatın yalnız tam üzvlük yolu ilə deyil, modullu və mərhələli inteqrasiya vasitəsilə genişlənəcəyini göstərir.

Məsələnin ən həssas nöqtəsi Ermənistanın bu çərçivəyə necə daxil ola biləcəyidir. Tam üzvlüyün mümkünlüyü yaxın perspektivdə real görünməsə də, sektoral əməkdaşlıq formatı daha praqmatik seçimdir. Bunun üçün isə ilk növbədə üç əsas istiqamətdə etimad yaratmaq lazımdır: siyasi, iqtisadi və təhlükəsizlik şərtləri. Siyasi planda sülh sazişinin imzalanması, ərazi bütövlüyü ilə bağlı iddialardan imtina və sərhədlərin hüquqi bağlanması qaçılmazdır. İqtisadi müstəvidə gömrük və logistika prosedurlarının sadələşdirilməsi, tariflərin mərhələli şəkildə azaldılması, rəqəmsal ticarət rejimlərinin tətbiqi Ermənistan üçün real fayda kanalı ola bilər. Təhlükəsizlik baxımından isə tranzit xətlərinin qorunması və fövqəladə hallarda birgə mexanizmlərin işlənməsi zəruridir.

Geoiqtisadi mülahizələr göstərir ki, Ermənistan üçün ən rasional seçim məhz Türk məkanına bağlılığın artmasıdır. Orta Dəhliz, enerji xətləri, regional ticarət axınları və gömrükdə vahid standartlara yaxınlaşma iqtisadiyyatın xərclərini əhəmiyyətli dərəcədə azalda bilər. Bu reallıq identik diskursu ikinci plana keçirərək rifah arqumentini önə çıxarır. Yəni, iqtisadi artımın təmin olunması üçün ən əlverişli bazar və infrastruktur məhz qonşu türk dövlətlərinin yaratdığı şəbəkələrdədir.

Beynəlxalq təcrübə də göstərir ki, "tam üzvlük" hər zaman inteqrasiyanın əsas yolu deyil. Avrasiya məkanında Şanxay Əməkdaşlıq Təşkilatı müşahidəçi və dialoq tərəfdaşlığı formatı ilə çevrələr qurur, Avropa İttifaqı isə müxtəlif dərinliklərdə assosiasiya və tərəfdaşlıq modulları təqdim edir. Bu təcrübələr TDT üçün də göstəricidir: sektoral uyğunlaşma daha erkən fayda verir və siyasi müqaviməti azaldır.

Ermənistan üçün realist yol xəritəsi də məhz bu pilləli inteqrasiyadan keçir. Qısa müddətdə risklərin azaldılması və tranzit təhlükəsizliyi üzrə öhdəliklər götürülməsi, gömrükdə elektron deklarasiyaların genişləndirilməsi və enerji sahəsində qarşılıqlı yardım mexanizmləri ən təxirəsalınmaz addımlar ola bilər. Növbəti mərhələdə rəqəmsal ticarət razılaşmaları, daşımada tariflərin yaxınlaşdırılması və KOB-lar üçün ortaq fondların yaradılması mümkün görünür. Uzunmüddətli perspektivdə isə müşahidəçi və ya xüsusi tərəfdaş statusu gündəmə gələ bilər. Burada əsas məsələ Ermənistan cəmiyyətində identik narahatlıqları yumşaldacaq "görünən fayda" paketinin ilk illərdə təmin edilməsidir. Tariflərin azalması, keçid vaxtlarının qısalması və yeni iş yerlərinin açılması kimi konkret nəticələr bu prosesin legitimliyini möhkəmləndirə bilər.

Bu yol xəritəsinin işləməsi üçün paralel şəkildə iki əsas narrativin formalaşdırılması vacibdir. Birincisi rifah narrativdir: qiymətlərin sabitləşməsi, ucuz nəqliyyat, yeni ixrac imkanları və məşğulluq. İkincisi isə təhlükəsizlik narrativdir: qarşılıqlı iqtisadi asılılıq riskləri bahalaşdırır və münaqişə ehtimalını azaldır. Eyni zamanda, TDT-nin genişlənməsi üçün "qırmızı xətlər" də aydındır. Ərazi bütövlüyünə hörmət, revizionist iddialardan imtina, mədəni irsin qorunması və tranzit xətlərinin təhlükəsizliyinə dair protokollar olmadan formal inteqrasiya mümkün deyil. Bununla belə, texniki və sektoral əməkdaşlıq etimad kapitalı toplayaraq siyasi yaxınlaşma üçün zəmin yarada bilər.

Beləliklə, TDT-nin gələcək genişlənməsi tam üzvlük dalğasından daha çox funksional modulların açılması və müşahidəçi/tərəfdaş formatlarının istifadəsi ilə gedəcək. Son olaraq qeyd etməliyik ki, Ermənistanın siyasətində uzunmüddətli dayanıqlığı təmin edən yeganə strategiya – Türkiyə və Azərbaycanla normallaşma üzərindən regional iqtisadi-siyasi inteqrasiya trayektoriyasına keçiddir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**Xuntaçıların məhkəməsi**

## Zərərçəkmişlər erməni hərbçilərinin vəhşiliklərinə şahidlik edirlər





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 21-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında zərərçəkmiş şəxslərin ifadələri dinlənilib. Əziz Hüseynovun bacısı Sonagül Şirinova qardaşının 1994-cü il iyunun 16-da Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində Xocavənddə, qaynı Habil Şirinovun isə 1993-cü il iyunun 26-da Ağdamın Xıdırlı kəndində şəhid olduqlarını bildirib.

Ağayar Abbasov 1992-ci ildə Laçından məcburi köçkün düşdüklərini, 2020-ci ildə isə oğlu Elgin Abbaslının Şuşada şəhid olduğunu deyib.

Zərərçəkmiş Mustafa Ağayev ifadəsində 2021-ci il iyunun 16-da Sədərək rayonu istiqamətində yaralandığını söyləyib. Vüsalə Salmanova qeyd edib ki, 1992-ci ildə Laçın rayonundan məcburi köçkün düşüb. Gülnarə Soltanova diqqətə çatdırıb ki, 1993-cü il oktyabrın 31-də ailə üzvləri ilə birlikdə Ağdamda girov götürülüb, onlara əzab-əziyyətlər, işgəncələr verilib. 1995-ci ilin fevralında əsir götürüldüyünü söyləyən İlqar Zaidov vurğulayıb ki, 1 il 3 ay əsirlikdə qalıb, ona ağır işgəncələr veriblər.

Zərərçəkmiş Rəhilə Hacıyeva 1992-ci ilin fevral ayında Xocalı soyqırımı zamanı ailə üzvləri ilə birlikdə girov götürüldüyünü,

Xankəndi sakini Cəlil kişinin hamilə gəlininin qarnının bıçaqla yarılaraq körpəsinin çıxarıldığını söyləyib. Kəlbəcərin Ağcakənd kəndinin sakini Gültəkin Cəlilova deyib ki, 1993-cü ilin martın 31-də kəndi məcburi tərk etməli olublar, ermənilər onları qarər edib. Zərərçəkənlər Xədicə Əhmədova və Mahizər Abdullayeva isə 1992-ci ildə Laçından məcburi köçkün düşdüklərini, evlərinin talan edildiyini bildiriblər.

Laçın rayon sakini Vidadi Məmmədov sol diz oynağından yaralandığını söyləyib. Elvin Fərhadlı atası Vidadi Fərhadovun 2023-cü il sentyabrın 19-da Şuşada artilleriya atəşi nəticəsində həlak olduğunu deyib. Anar Orucov qeyd edib ki, atası Telman Orucov, anası Raya Rəhimova, bacısı Təranə Orucova, həmçinin əmisi və əmisi oğlu Xocalı faciəsində qətlə yetiriliblər.

Qardaşının və əmisi oğlunun 1992-ci ildə Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində Laçının Güləbird kəndində şəhid olduqlarını deyən Nailə Aslanova bildirib ki, həmin il mayın 18-də Laçından məcburi köçkün düşüb.

Sonra təqsirləndirilən Arayik Harutyunyanın vəkili müdafiə etdiyi şəxslə konfidensial şəkildə görüşmək üçün vəsatətlə çıxış edib.

Hakim Zeynal Ağayev vəsatəti təmin edib və konfidensial görüş keçirilməsi üçün məhkəmədə fasilə elan olunub.

Fasilədən sonra məhkəmə iclası zərərçəkmiş şəxslərin ifadələri ilə davam etdirilib.

Xankişi Qafarov diqqətə çatdırıb ki, 1994-cü ilin əvvəlində Kəlbəcərdə Ömər aşırımı istiqamətində döyüşlərdə çox sayda insanın həlak olduğunu və yaralandığını vurğulayaraq qeyd edib: "Dörd gün qarın içində mühasirədə qaldıq, ayaqlarımı, əllərimi don vurdu. Sonra bizi əsir götürüb Ermənistana apardılar. Hər gün ağır işgəncələr verirdilər. Donvurmaya görə sol ayağım amputasiya edildi".

Zərərçəkmiş şəxslər Fəxrəddin Ağayev, Loğman Balayev, Əli Qənbərov, Lətif Mürsəlov, Ramazan Mamedov və Çıraq Mehraliyev ifadələrində Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində 1993-cü ildə Kəlbəcər rayonundan məcburi köçkün düşdüklərini bildiriblər.

Digər zərərçəkmiş şəxslər Minarə Mirzəyeva, Vəzirxan Süleymanov, Şahin Məmmədov, Aidə Məcnunova, Tahirə Zeynalova, Səadət Heydərova, Tahirə Abdullayeva, Gülsarə Əhmədova, Əminə Məhərrəmova, Zəminə Qaraşova, Afaq Qasımova, Səxavət Rzayev, Sədrəddin İsmayılov, Elşad Hüseynov, Mahir Mirzəyev, Vasif Cəbrayılov, Çingiz İlyasov, Sərxan Kazımov, Xaqani Mustafayev, Məhəmməd Əhmədov, Qalib İsmayılov, Rasim Bəşirov, Əhməd Qarayev, Nicat Behbudov, Kəmalə Həsənova, Bəturə Quliyeva, Fərqanə Rəsulova, Yeganə Aslanova və Ənvər Abdullayev ifadələrində 1992-ci ildə Laçın rayonundan məcburi köçkün düşdüklərini vurğulayıblar.

Mustafa Əmirov və Elxan Şıxəliyev iə Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində zərər çəkdiklərini və xəsarət aldıqlarını bildiriblər. Hümbət Alırzayev, Səxavət Əliyev və Astan Bayramov 1993-cü ildə Qubadlı rayonundan məcburi köçkün düşdüklərini diqqətə çatdırıblar.

Zərərçəkmişlərin hüquqi varisləri və zərərçəkənlər iclas zamanı Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin, Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun, dövlət ittihamçıları Fuad Musayevin, Vüsal Abdullayevin və Təranə Məmmədovanın, eləcə də təqsirləndirilən şəxslərin, təqsirləndirilənlərin müdafiəçilərinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 22-də davam etdiriləcək.

## Baş prokurorluqda görüş

**Cari ilin 22 avqust tarixində "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda Laçın rayonunda keçirilməsi nəzərdə tutulmuş beynəlxalq konfransda iştirak etmək məqsədilə MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının İcraçı katibi Yuri Nikolayeviç Jdanovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfər edib.**



Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevlə Yuri Jdanov arasında ikitərəfli görüş keçirilib.

Baş prokuror qonaqları salamlayaraq, MDB Baş Prokurorlarının Əlaqələndirmə Şurasının fəaliyyətinin yüksək qiymətləndirdiyini ifadə edib, qısa müddət ərzində ölkəmizə ikinci səfərinin təşkilinin önəmini vurğulayaraq, bunun qurumlarası münasibətlərin yüksək səviyyədə olmasının göstəricisi olduğunu bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Yuri Jdanov, Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovun salamlarını çatdıraraq, Azərbaycan Respublikası ilə hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm verdiklərini qeyd etmiş, Azərbaycan Prokurorluğunun təşkilatın fəaliyyətində aktiv iştirakını və verdiyi töhfələri yüksək dəyərləndirib.

Görüş zamanı MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının yaradılmasının 30 illiyi münasibətilə yubiley tədbirlərinin təşkili və cari ilin oktyabr ayında Tacikistanda keçiriləcək Şuranın 35-ci iclasına hazırlıq məsələləri də müzakirə edilib.

**XQ**

# CƏFƏNGİSTAN

(əvvəli 1-ci səhifədə)

Hayların uydurduqları tarix barədə yazdıqları kitablarda, tərtib etdikləri dərsliklərdə özlərini Cənubi Qafqazın əksər ərazilərinin şəriksiz sahibi kimi qələmə vermələri bu günün məsələsi deyil. Onların yalanlarını Azərbaycan alimləri ilə yanaşı, rus, gürcü alimləri, hətta bəzi erməni tarixçiləri üzə çıxarıblar, bu barədə əsərlər yazıblar. Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsindən sonra Ermənistan Baş naziri Nikol Paşinyan ölkəsinin gerbindəki təsvirlər, coğrafiya dərsliklərindəki tarixi adlarla bağlı yanlışlıqlar barədə dəfələrlə çıxışlar edib, bu barədə parlamentin tribunasından danışıb. Amma təəssüf ki, hay cəmiyyətində hələ də saxta tarixi təbliğ edənlər qonşulara qarşı nəinki ərazi iddiaları irəli sürürlər, hətta "dərsliklərindəki təhriflərdən" dəm vururlar.

Son vaxtlar Ermənistanda Azərbaycanın orta məktəblərində tədris olunan tarix dərsliklərinə dəyişiklik edilməsi barədə çağırışlar eşidilir. Özünü sahənin eksperti kimi təqdim edən Tatevik Hayrapetyanın V sinif tarix dərsliyindən gətirdiyi sitata diqqət yetirin: "Ermənistan SSR tarixi Azərbaycan torpaqlarının qərb hissəsində yaradılıb. Sonralar Moskva Azərbaycan SSR-ə məxsus torpaqların bir hissəsini, o cümlədən Şərur–Dərələyəz və Qərbi Zəngəzuru Ermənistan SSR-ə verdi. Nəticədə Azərbaycan Naxçıvandan ayrıldı. Ata-baba yurdlarından zorla qovulan soydaşlarımız sonradan "Qərbi Azərbaycan" icmasını yaratdılar. Bu icma Qərbi Azərbaycanda tarixi irsimizin qorunub saxlanmasını, köçkün əhalinin hüquqlarını beynəlxalq təşkilatlarda müdafiə edir. Onlar öz vətənlərinə qayıtmaq üçün mübarizəni davam etdirirlər".

Bunun ardınca T.Hayrapetyan sual edir: "Bu, Azərbaycanda bütöv bir nəslin Ermənistana qarşı yetişdirilməsinə xidmət edən dövlət təbliğat proqramı deyil, bəs nədir?".

Bəs, əslində, bu kimi çağırışlar nədən xəbər verir? 1920-ci ildə Ermənistan SSR-nin yaranmasının canlı şahidi olan insanlar var. Məgər biz Ermənistanın xoşuna gəlsin deyə tariximizi təhrif etməliyik? Bütün dünyaya bəllidir ki, Ermənistan adlı dövlət Cənubi Qafqazda Rusiyanın təşəbbüsü ilə Azərbaycan torpaqlarında yaradılıb. Ermənilərin bu bölgəyə köçü isə 1828-ci ildə İranla Rusiya arasında bağlanan Türkmənçay sülh müqaviləsindən sonra başlayıb. Bunu bildiyimiz halda, Vaşinqton razılaşmasından sonra tarix dərsliklərinə dəyişiklik etməliyik?

**



**Mövzu ilə bağlı XQ-yə açıqlama verən Türkiyənin Erciyes Universitetinin professoru, ermənişünas alim Qafar Çaxmaqlı** Tatevik Hayrapetyanı üzdəniraq



azərbaycanşünaslardan biri kimi tanıdığını bildirdi: "O, yazılarında, çıxışlarında erməni cəmiyyətinə Azərbaycan gerçəklərini əyri güzgüdə təqdim etməyə çalışır. Bu işi görərkən çox ucuz üsullardan istifadə edir. Hayrapetyan bizim dərsliklərdə gerçəkləri dəyişdirməyi iddia edərkən, yumşaq desək, qabaqdangəlmişliyə yol verir. Maraqlıdır ki, hələ Vaşinqton Bəyannaməsi imzalanmamış ermənilərin dərs kitablarında dəyişiklik məsələsi cəmiyyətin özündə müzakirə mövzusu idi. Xatırlayırsınızsa, bu müzakirələrə baş nazirin özü də qoşulmuşdu".

Erməni irqçi düşüncəsinin orta məktəb dərsliklərində yer almasının danılmaz fakt olduğuna diqqət çəkən ekspert indi bu sahədə də təmizləmə prosesinin başlanmaqda olduğunu vurğuladı: "Ermənistan təhsil nazirliyinə 2024-cü ildə hökümətin təlimatı var. Tatevik Hayrapetyanın dilindən belə bir iddianın səsləndirilməsi ilə demək istəyirlər ki, biz dərsliklərə əl gəzdiririksə, Azərbaycan da bu addımı atsın. Guya, Vaşinqton Bəyannaməsində belə bir addımın atılmasını tərəflər öz öhdələrinə götürməlidir. Bu, erməni bicliyi, fürsətdən istifadə etmək cəhdidir.

Onların dilə gətirdiyi dərs kitablarında Ermənistan dövlətinin Azərbaycan torpaqları hesabına yaradılması faktı, 1920-ci ildə Qərbi Zəngəzurun, Şərur-Dərələyəzin, Göyçə ətrafı kəndlərin Ermənistan SSR-ə verilməsində hansı yanlışlıq var? Bəli, 1918-ci ilin mayında Ermənistan dövləti Azərbaycan torpaqlarında elan olunub. O zaman bu respublikanın ərazisi cəmi 9 min kvadratkilometr idi. Sonra necə oldu ki, Ermənistan ərazisi 29,743 min kvadrat/kilometrə çatdı? Məgər biz uşaqlarımıza bunun səbəblərini izah etməli deyilik? Qərbi Azərbaycanla bağlı qurumun dərs kitablarında öyrədilməsində nə qəbahət var? Amma onların dərsliklərində Azərbaycana, Türkiyəyə qarşı ərazi iddialarından danışılır, bizə nifrət aşılanır".

Professor Q.Çaxmaqlı erməni dərs kitablarında faşizmin təbliğ olunduğunu, terrorçuların qəhrəman kimi tanıdıldığını öz əsərlərində yazdığına diqqət çəkdi: "Andranik Ozanyan, Qaregin Njde, Soğomon Teyliryan, Monte Melkonyan erməni millətinin qəhrəmanları sayılırlar. Ermənicə dərs kitablarında Njdedən bəhs edilən hissədə onun faşizmi təbliğ edən, onunla öyünən fikri verilir: "Faşizmin varlığı, hitlerizm haqqında bir bilgi yoxkən, bu ideologiyanı 1919-da Sünik dağlarında bizim David Bek qisasçıları ayaqda tuturdular". Həmin dövrdə və daha sonrakı illərdə daşnaklar tərəfindən nəşr olunan "Hayastan" (Plovdiv), "Araks" (Sofiya), "Azatamart" (Paris) kimi müxtəlif jurnal və qəzetlərdə Njde aktiv fəaliyyətdə idi. Onun yazılarının tək hədəfi türklər və Türkiyə, Azərbaycan, məqsədi isə xarici ölkələrə dağılmış ermənilərdə türklərə qarşı genetik nifrət duyğusu yaratmaq idi. 1919-cu ilə aid ermənicə sənədlərdə bütün bunlar vardır. Azərbaycan və Türkiyəyə, millətimizə genetik nifrət! IX siniflər üçün "Erməni tarixi" kitabında ("Erməni tarixi". Yeni dövr. II hissə. Dərs kitabı. IX siniflər üçün. "Marmar", 2019. s.96.) Njde belə təqdim olunur: "Kimlər üçünsə "hərbi cani", bizim üçün isə Ermənistanın xilaskarıdır Qaregin Njde". Kitabın başqa bir yerində Njdenin bu fikirləri çatdırılır: "Kim Türkiyənin yanındadırsa, o, mənim millətimin və bizim tarixi ərazilərimizə sahibolma haqqımızın düşmənidir. Elə bir düşmən ki, onu heç Allah belə mənimlə barışdıra bilməz. Budur mənim siyasi davranış tərzim…". Hayların dərs kitablarında belə irqçi düşüncələr olduqca çoxdur. Mən hələ millətçi kitabları, türklərə qarşı düşmənçiliyi təbliğ edən yazıçıları demirəm. Bu düşüncə kökündən dəyişməlidir. Bunu edəcəklərmi? T.Hayrapetyan kimi "tarixçilərin" bizə hücumlarının arxasında bəlli mətləblər durur. Onları dəyişdirməkdən, faşist ideologiyasından imtina etməmək üçün bəhanələr aramaq tanış hay üsuludur".

*

XX əsrin tarixi ermənilərin Cənubi Qafqaza, o cümlədən tarixi Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi faktları ilə zəngindir. Azərbaycanlıların öz tarixi ərazilərindən sıxışdırılması, Ermənistandan qovulması və bu ərazilərin hissə-hissə itirilməsi, eləcə də sonra Azərbaycana təcavüz, torpaqlarımızın işğalı yaxın tarixin yaddaşına yazılıb. Bu hadisələrin start fiti XIX əsrin əvvəllərində – 1813-ci il Gülüstan və 1828-ci il Türkmənçay müqaviləsinin imzalanmasından sonra verilib. Həmin dövr Ermənistan orta məktəblərində, əsasən VIII və IX sinif tarix dərsliklərində əks olunub. VIII sinif "Erməni tarixi" (Aşot Melkonyan, Aram Simonyan, Aram Nazaryan, Akob Muradyan, İrəvan, "Zangak" nəşriyyatı 2013-cü il) XVII əsrin ortaları –1918-ci ilin mayınadək dövrü, IX sinif "Erməni tarixi" (Vladimir Barxudaryan, Ararat Hakobyan, Hamlet Harutyunyan,Vladimir Ghazaxetsyan, Edvard Minasyan, Edvard Melkonyan, "Manmar" nəşriyyatı, 2014-cü il) 1918-ci ilin may ayı – 2000-ci illəri əhatə edir.

Konkret misallar: VIII sinif dərsliyinin giriş hissəsində müəlliflər XVII əsrdə ermənilərin İran və Osmanlı dövlətləri çərçivəsində yaşamalarını müsəlmanların əsarətində qalmaq kimi dəyərləndirərək, bundan yalnız xristianların vasitəsilə qurtulub öz dövlətçiliklərini bərpa edə biləcəyini izah edirlər. Bununla bağlı, "xristian Avropanın" yardımını almaq üçün İsrael Orinin fəaliyyətinə istinad edirlər. Ümumiyyətlə, bu dərslikdə digər hadisələrin təsviri, o cümlədən erməni kilsəsinin rolu barədə hissələr ermənilərin hələ məktəb dövründən xristian və müsəlman qarşıdurması ruhunda böyüdüldüklərini nümayiş etdirir. X sinfin "Erməni tarixi" dərsliyində isə hayların "Erməni yaylasının yerli sahibləri və varisləridir" iddiası erməni tarixçilərinin "dünyagörüşünü" daha aydın formada nümayiş etdirir.

Adlarını qeyd etdiyimiz müəlliflərin hazırladıqları dərsliklər uzun illərdir ki, Ermənistanda geniş istifadə olunur. Bu dərsliklərin vaxtaşırı təkrar nəşr olunmasına baxmayaraq, məzmun baxımdan ciddi dəyişikliklərə məruz qalmayıblar. Əlbəttə, erməni tərəfinin tarixi saxtalaşdırmaq və miflər yaratmaq sahəsində qeyri-adi istedadını nəzərə aldıqda dərsliklərdə uydurmaların yer alması təəccüb doğurmamalıdır. Halbuki, tarixi həqiqətlərin gizlədilməsi və ya təhrif edilməsi səbəbindən bu iki dərslikdə uyğunsuzluq və məntiqsizlik kifayət qədərdir.

Ümumiyyətlə, Ermənistanda tarix dərsliklərinin təhlili onu göstərir ki, bu kitablar azyaşlı ermənilərin şüuruna, guya, Azərbaycan xalqının öz tarixi ərazilərində yad olduğunu, bununla da həmin ərazilərdə yaşamaq hüququmuzun olmadığını yeridir. Artıq bölgədə geosiyasi, eləcə də humanitar durumun dəyişməsinə baxmayaraq daşnak-separat düşüncəli haylar hələ də Qafqazda bizim mövcudluğumuzla barışmaq istəmirlər. Bu mərəz onları sağlam təfəkkürdən məhrum etməklə yanaşı, Absurdistan cəmiyyətində azərbaycanlılara qarşı nifrətin şiddətləndirilməsinə xidmət edir. Amma əminik ki, bu zehniyyətin ömrü "tünd sirkənin sonda öz qabını çatladana" qədərdir...

***İ.HƏSƏNQALA***
***XQ***

# Diaspor Ermənistanı yeni böhrana sürükləyir

## *Sasunyanın məqaləsi radikal düşüncənin köhnəlmiş əks-sədasıdır*

**Okeanın o tayında fəaliyyət göstərən Amerika Erməniləri Milli Komitəsi və Erməni İnqilabi Federasiyası – "Daşnaksütyun"un "Hay Data" ofisi adlanan bədnam qurumların Azərbaycanla Ermənistan arasında avqustun 8-də sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında sazişin mətninin paraflanmasına qarşı çıxmaları barədə məlumat vermişdik. Deyəsən, sülhə pəl vurmaq növbəsi bu dəfə "The California Courier" qəzetinin baş redaktoru Arut Sasunyana çatıb. Onun bugünlərdə yazdığı və adıçəkilən qəzetdə dərc olunan "Sülh müqaviləsi": Ermənistanın alçaldıcı kapitulyasiyası" sərlövhəli məqalə belə deməyə əsas verir.**



Bəri başdan bildirək ki, məqalə Sasunyanın başdan-ayağa qərəzli yanaşmasını özündə əks etdirir. O bildirib ki, Bakı və İrəvan arasında bir neçə il davam edən gərgin və birtərəfli danışıqlardan sonra bu ilin martında tərəflər, nəhayət ki, sülh müqaviləsinin bütün 17 bəndi üzrə razılığa gəldiklərini bəyan ediblər. Buradaca bildirək ki, Sasunyanın sülh sazişini qondarma adlandırması, bu sözü dırnaq işarəsi içində yazması diqqətdən yayınmır. İddia edib ki, Ermənistan Azərbaycanın diktə etdiyi bütün şərtləri qəbul edib: "Lakin Ermənistan imzalanma tarixini təyin etməyi xahiş etdikdə, Bakı bundan boyun qaçırdı. Baş nazir Nikol Paşinyanın əlavə güzəştlərə getməyə hazır olduğunu nəzərə alaraq, Azərbaycan yeni tələblər irəli sürmək üçün yekun imzalanmanı təxirə saldı. Hətta ABŞ Prezidenti Donald Tramp sazişi imzalamaq üçün tərəfləri Ağ Evə dəvət etdikdən sonra Azərbaycan bundan imtina etdi. Nəticə etibarilə, saziş yalnız əvvəlcədən paraflanıb və mütləq hüquqi qüvvəyə malik deyil".

Tərəflərin avqustun 11-də rəsmi olaraq "Azərbaycan Respublikası ilə Emənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş" adı altında sənədin tam mətnini dərc etdiklərini qeyd edən Sasunyan belə təxribatçı suallar qaldırıb: "Ermənistan necə "sülh müqaviləsi" imzalaya bilər ki, Azərbaycan qoşunları 2021-ci ildən Ermənistan ərazisinin bir hissəsini "zəbt edib". Bakı həbsxanalarında "erməni əsirlər" saxlanılır. "Artsaxdan olan 120 min məcburi köçkün" (?) öz doğma yurdlarına (?) qayıtmaq imkanından məhrumdur".

Sasunyan yazıb ki, ədalətli, hərtərəfli və davamlı sülh vədi nəcib səslənsə də, hələlik boş sözlər olaraq qalır: "Əgər sülh həqiqətən ədalətli və davamlıdırsa, heç kim onun əleyhinə deyil. Amma Azərbaycanın daimi təhdidləri (?) bunun əksini deyir. Ona sülh yox, erməni torpaqları (?) lazımdır".

Bundan sonra 17 maddədən ibarət sazişin qısa icmalını verən, daha doğrusu, onu bənd-bənd təftiş edən Amerika ermənisi yalnız sonuncu iki maddəni tənqid etməyib. Bu qənaətə gəlib ki, sonuncu maddələr neytraldır və tənqidə tuş gəlmir.

Sasunyan sazişi "təslimçilik sənədi" adlandırıb və təzyiq altında imzalandığı üçün (?) onun beynəlxalq hüquqa görə heç bir hüquqi qüvvəsinin olmadığını iddia edib: "Paşinyan seçiciləri 2026-cı il seçkilərində onu hakimiyyətdə saxlamağa inandırmaq üçün sülh sazişinin mənasını təhrif edir.

O, daha sonra erməni xalqına sazişi qəbul etməmək üçün, necə deyərlər, "yol xəritəsi" təqdim edir: "Mümkün addımlardan ən başlıcası sazişin yekun imzalanmasına qədər Paşinyanın vəzifədən uzaqlaşdırılmasıdır. Əgər bu baş tutmasa, qarşıdan gələn referendumda yeni konstitusiyanın əleyhinə səs verin ki, bu da Azərbaycanı razılaşmadan imtina etməyə, Paşinyanı isə istefaya göndərməyə məcbur edə bilər. Əgər Konstitusiya Məhkəməsi və Paşinyan parlamenti (?) istənilən halda sazişi ratifikasiya etsə, xalq yenə də referendumda ondan imtina edə bilər. Son nəticədə Ermənistanın gələcək patriotik hökuməti sazişi, eləcə də "Tramp marşrutu" sazişini etibarsız sayaraq onu ləğv edə bilər".

*

Göründüyü kimi, A.Sasunyanın fikirləri başdan-ayağa cəfəngiyyatdır. Məqalə faktların təhrifi, qərəzli yanaşma və revanşizm elementləri ilə doludur. Onun fikirlərinin tənqidinə keçməzdən öncə qeyd edək ki, Sasunyan 1950-ci ildə Suriyanın Hələb şəhərində anadan olub. Özünü erməni əsilli amerikalı yazıçısı və ictimai fəal adlandırır. 10 il BMT-nin Cenevrə bölməsində insan hüquqları üzrə qeyri-hökumət nümayəndəsi vəzifəsində çalışıb. O, Ermənistana 720 milyon dollarlıq humanitar yardım göstərmiş Birləşmiş Erməni Fondunun prezidenti və Hayastanda 242 milyon dollarlıq infrastruktur layihələrini maliyyələşdirən Kirk Kerkoryanın Lincy Fondunun keçmiş sədr müavini olub. Sasunyan 1983-cü ildən Kaliforniya ştatının ermənilərin çoxluq təşkil etdikləri Qlendeyl şəhərində ingilisdilli erməni həftəlik qəzeti olan "The California Courier"in baş redaktorudur. Qəzet özü isə ABŞ-da 1958-ci ildən nəşr olunur.

Sasunyanın məqaləsi bir daha göstərir ki, ABŞ-da yaşayan bəzi erməni diaspor rəhbərləri bu gün də reallığı qəbul etmək istəmirlər. Onlar üçün ən böyük faciə Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bərpa etməsi, bölgədə yeni siyasi düzənin formalaşması və Ermənistanın qonşuları ilə normal münasibətlər qurmaq məcburiyyətində qalmasıdır. Sasunyanın məqalədə irəli sürdüyü arqumentlər qeyd etdiyimiz kimi, qərəz üzərində qurulub və erməni əsilli amerikalılara, eləcə də Ermənistan cəmiyyətinə yanlış mesaj vermək məqsədi daşıyır. Əslində isə o, öz yazısı ilə radikal düşünsədə, köhnə stereotiplərin əsiri olduğunu göstərir.

Birincisi, Sasunyan iddia edir ki, Ermənistan Azərbaycanın bütün şərtlərini qəbul edib. Halbuki, bu yanaşma həm danışıqlar prosesinə, həm də diplomatik məntiqə tamamilə ziddir. Azərbaycan heç vaxt birtərəfli qaydada qarşı tərəfə təzyiq göstərməyib. Əksinə, sülh sazişi bir neçə il davam edən gərgin müzakirələrin, əvvəlcə vasitəçilərin iştirakı ilə, sonra isə vasitəçisiz danışıqların məhsuludur. Sasunyanın, guya, Bakının imzalanmanı süni şəkildə təxirə saldığı barədə fikirləri də həqiqəti əks etdirmir. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, sülh sənədinin imzalanması üçün zəruri siyasi iradə mövcuddur, amma bu sənədin real nəticə verməsi üçün Ermənistanın bir sıra ev tapşırıqlarını yerinə yetirməsi vacibdir. ATƏT-in Minsk qrupunun hüquqi cəhətdən ləğv edilməsi ilə bağlı ölkəmizin tələbinin yerinə yetirilməsindən sonra hazırda sazişin imzalanmasına əngəl olan yeganə məqam Ermənistan konstitusiyasında Azərbaycana ərazi iddialarının qalmasıdır. Bu məsələ də öz həllini tapanda saziş imzalana bilər.

İkincisi, Sasunyan ümumi "xor"a qoşularaq Azərbaycanda "erməni əsirlər"in saxlanıldığını iddia edir. Halbuki, müharibə bitdikdən sonra bütün hərbi əsirlər Ermənistana təhvil verilib. Bu gün İrəvanın "əsir" kimi təqdim etməyə çalışdığı şəxslər Azərbaycana və onun xalqına qarşı konkret ağır cinayətlər törətməkdə təqsirləndirilən şəxslərdir. Beynəlxalq hüquqa görə, onların statusu "əsir" deyil. Sasunyanın bu faktı bilərəkdən təhrif etməsi onun məqsədini ortaya qoyur.

Üçüncüsü, Sasunyan hələ də "Artsax" uydurmasından danışır və 120 min erməninin, guya, məcburi köçkün olduğunu iddia edir. Azərbaycan dəfələrlə bəyan edib ki, öz vətəndaşlığı altında yaşamaq istəyənlər müvafiq prosedurlardan keçməklə geri qayıda bilərlər. Bu mənada Sasunyanın "məcburi köçkünlük" ifadəsi tamamilə əsassızdır.

Onun sülh sazişini "təslimçilik sənədi" adlandırması, əslində, Ermənistan cəmiyyətinə düşmənçilik mesajıdır. Erməni xalqına, guya, bu sənədin hüquqi qüvvəsinin olmadığını təlqin etməsi isə həm beynəlxalq hüquqa, həm də diplomatik qaydalara açıq hörmətsizlikdir. Əgər bu sənədin heç bir qüvvəsi yoxdursa, bəs nə üçün Ermənistan və Azərbaycan rəsmi şəxsləri bu qədər uzun müddət ərzində onun üzərində çalışıb? Bu cür yanaşma, sadəcə, daxili siyasi mübarizədə Paşinyana qarşı təzyiq vasitəsidir.

Sasunyanın Paşinyanı devirməklə bağlı çağırışları göstərir ki, ABŞ-dakı radikal erməni dairələri Ermənistanın dövlət maraqlarını deyil, şəxsi siyasi məqsədlərini güdürlər. O, xalqı referendumda yeni konstitusiyanın əleyhinə səs verməyə, parlament və Konstitusiya Məhkəməsinin qərarlarını tanımamağa səsləməklə faktiki olaraq dövlətçiliyə qarşı çıxır. Bu, Ermənistanı daha dərin böhrana sürükləyə bilər. Əslində, Sasunyan və onun kimilər Ermənistanın sülh sazişini imzalamaqdan başqa çıxış yolunun olmadığını anlayırlar. Azərbaycan 30 illik işğala son qoyub, dövlət sərhədlərini bərpa edib və regionda yeni reallıqlar yaradıb. Bu gün Ermənistanın təhlükəsizliyi, iqtisadi inkişafı, beynəlxalq arenada nüfuzu yalnız qonşularla münasibətlərin normallaşmasından keçir. Bu, sadəcə Azərbaycanın mövqeyi deyil, həm də beynəlxalq aləmin qəbul etdiyi reallıqdır. Sasunyan kimilər isə hələ də xəyallarla yaşayır, Ermənistana qeyri-real yol xəritələri təklif edirlər. Onun yazısı bir daha sübut edir ki, xaricdə oturub radikal çağırışlar edənlər nə Ermənistan cəmiyyətinin problemlərini anlayır, nə də gələcək üçün məsuliyyət daşıyırlar. Ermənistana bu gün lazımi olan destruktiv çağırışlar deyil, real siyasət və praqmatik yanaşmadır. Sülh sazişi isə bu istiqamətdə yeganə çıxış yoludur.

***Səxavət HƏMİD***
***XQ***

# Qarsdan Naxçıvana polad körpü salınacaq



**(əvvəli 1-ci səhifədə)**

Türkiyəli nazir bildirib ki, bu xətt Azərbaycan və Naxçıvan Muxtar Respublikası arasında əlaqəni təmin edəcək Zəngəzur dəhlizinin mühüm hissəsi olacaq. "Bu xətt sayəsində Türkiyə ilə Azərbaycan arasında yeni, fasiləsiz dəmir yolu əlaqəsi təmin ediləcək. Eyni zamanda, Şərqi və Cənub-Şərqi Anadolunun istehsal potensialı xarici bazarlara daha tez çatacaq, Aralıq dənizinin turizm potensialı artacaq. Cənubi Qafqazda iqtisadi əməkdaşlığı artıracaq Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə Pekindən Londona qədər davam edən şərq-qərb xətti daha səmərəli fəaliyyət göstərəcək.", – deyə o əlavə edib.

Xatırladaq ki, bu ilin əvvəllərində Türkiyənin Maliyyə və Xəzinədarlıq Nazirliyi Qars – İğdır – Aralıq – Dilucu (Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhəd əraziləri) dəmir yolu layihəsinə xarici mənbələrdən 2,4 milyard avro məbləğində xarici maliyyə cəlb edib. Yaponiyanın MUFG bankı başda olmaqla kreditorlar qrupu ilə Türkiyə Maliyyə və Xəzinədarlıq Nazirliyi arasında müvafiq razılaşma əldə olunub. Bu müqaviləyə İsveç və Avstriyanın kredit strukturları, o cümlədən EKN və OeKB, həmçinin İslam İnkişaf Bankının ayrı-ayrı bölmələri də qoşulub.

Layihənin məqsədi regionda nəqliyyat şəbəkələri və ticari əlaqələrin inkişafına töhfə verməkdir. Yeri gəlmişkən, iqtisadiyyat naziri Mikayıl Cabbarov bir qədər əvvəl layihə ilə bağlı açıqlamasında bildirmişdi ki, Qars – Naxçıvan dəmir yolunun inşası planı Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) yeni bir qolunun yaranması kimi qiymətləndirilməlidir.

Layihənin iqtisadi əhəmiyyətini yüksək dəyərləndirən ekspertlər də hesab edirlər ki, Orta Dəhlizə yeni nəfəs verən yeni dəmiryol xətti Dilucudan Qarsa səyahət müddətini 85 dəqiqəyə endirəcək. Bu da həm sərnişinlər, həm də yük daşımaları üçün böyük rahatlıq yaradacaq. Bununla yanaşı, layihənin icrası regional ticarət və inkişafa təkan verəcək. Belə ki, tikinti mərhələsində bölgədə iş yerləri artacaq və yerli bizneslər üçün yeni gəlir mənbələri yaranacaq. Ekspertlərin gəldiyi daha bir qənaət ondan ibarətdir ki, bu strateji layihə Naxçıvanla Türkiyə arasındakı iqtisadi əlaqələri daha da möhkəmləndirəcək və regionu müasir İpək Yolunun bir hissəsinə çevirəcək. Bütün bunlar isə regional ticarət üçün yeni perspektivlər açacaq. Belə ki, layihə yerli iqtisadiyyata töhfə verməklə yanaşı, həm də beynəlxalq yükdaşıma və ticarət marşrutlarını dəstəkləməklə Avropa və Asiya arasında yeni körpü rolunu oynayacaq. Bütövlükdə isə, Bakı – Tbilisi – Qars dəmir yolu xətti ilə inteqrasiya olunması planlaşdırılan bu marşrut iki qitə arasında ticarət əlaqələrini genişləndirəcək, beynəlxalq yük daşımalarında yeni perspektivlər yaradacaq: "Layihənin icrası beynəlxalq ticarət və logistika sahəsində mühüm dönüş nöqtəsi hesab olunur".

Qars – İğdır – Aralık – Dilucu dəmir yolu layihəsi Türkiyə Nəqliyyat Nazirliyi yanında infrastruktur investisiyaları üzrə Baş İdarənin xətti ilə həyata keçiriləcək. Layihə çərçivəsində 224 kilometr uzunluğunda dəmir yolunun çəkilməsi, Türkiyə ərazisində 5 stansiyanın inşası, marşrut boyu ümumi uzunluğu təşkil edəcək 11,3 kilometr 5 tunel, 145 yeraltı, 27 yerüstü keçid və 19 açılıb-bağlanan keçid, eləcə də 10 körpü və digər qurğuların tikintisi planlaşdırılır. Ümumilikdə isə, layihə çərçivəsində tikinti-quraşdırma işlərinin 5 ilə tamamlanacağı gözlənilir. Yüksək standartlara cavab verən dəmir yolu xətti saatda 120-160 kilometr sürət üçün nəzərdə tutulub. Bu da Mərkəzi Asiya ilə Avropa arasında sərnişin daşımalarının müddətini 18 gündən 12 günə endirəcək. Yeni dəmir yolu xətti istifadəyə verildikdən sonra bu marşrutla ildə 5,5 milyon sərnişin və 15 milyon ton yük daşımaq mümkün olacaq.

## ÜTT-yə qoşulma hazırlığı




**Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük prosesi və Birləşmiş Ərəb Əmirlikləri ilə hərtərəfli iqtisadi tərəfdaşlıq sazişi üzrə görülmüş işlər barədə məlumatların Biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyasına təqdim edilməsi planlaşdırılır.**

Bu barədə məlumat Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Beynəlxalq ticarət" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair Biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyası tərəfindən təsdiq edilən 2025-ci il üzrə Yol Xəritəsində öz əksini tapıb. Sənədə əsasən, bu ilin 1 oktyabr tarixinə qədər Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü ilə bağlı işçi qrupun növbəti iclasının keçirilməsinə hazırlıq işlərinin görülməsi nəzərdə tutulub.

Xatırladaq ki, qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşən Ümumdünya Ticarət Təşkilatı 1995-ci ildə yaradılıb. Hazırda ÜTT-nin 166 üzvü var. Bundan əlavə, 23 ölkə və bir neçə beynəlxalq təşkilat da qurumda müşahidəçi statusuna malikdir. ÜTT-nin əsas məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması, bununla da iqtisadi inkişafın artırılması və insanların həyat səviyyəsinin yaxşılaşdırılmasıdır.

1997-ci ildə Azərbaycan Respublikasının ÜTT-yə üzv olma niyyətini əks etdirən müraciət təşkilatın katibliyinə təqdim edilib. Həmin il ÜTT katibliyində ölkəmizlə bağlı işçi qrup yaradılıb. Azərbaycanın ÜTT-yə üzvlüyü ilə bağlı çoxtərəfli danışıqlar da məhz bu qrup tərəfindən aparılır.

## Avtomobil nəqliyyatı ilə daşımalar artıb

**Bu ilin yanvar-iyul aylarında Azərbaycanda avtomobil nəqliyyatı vasitələri ilə 7,7 milyard ABŞ dolları dəyərində 3,6 milyon ton yük daşınıb. Bu, 2024-cü ilin eyni dövründəki göstəriciyə nisbətən dəyər ifadəsində 659 milyon 16 min dollar və ya 9,3 faiz, həcm ifadəsində isə 326,3 min ton və ya 9,9 faiz çoxdur.**

Dövlət Gömrük Komitəsindən verilən məlumatına görə, cari ilin 7 ayında bu nəqliyyat vasitəsilə Azərbaycandan 1,4 milyard dollar dəyərində 1,5 milyon ton yük ixrac edilib. Bu isə illik müqayisədə dəyər baxımından 315,3 milyon dollar və ya 28 faiz, həcm ifadəsində isə 276,6 min ton və ya 21,9 faiz artım deməkdir.

Eyni zamanda, hesabat dövründə avtomobil nəqliyyatı vasitəsilə ölkəmizə 6,3 milyard dollar dəyərində 2,1 milyon ton yük idxal edilib. Bu da 2024-cü ilin 7 ayındakı göstəriciyə nisbətən dəyər ifadəsində 343,7 milyon dollar və ya 5,8 faiz, həcm baxımıdan isə 49,8 min ton və ya 2,4 faiz çoxdur.



# Azad torpaqlarda bol məhsul yetişdirilir

## *Bölgənin 100 min hektarında əkin-biçin aparılır*

**Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Ermənistanın 30 il ərzində işğalda saxladığı torpaqlarımız azad edildikdən sonra Qarabağın və Şərqi Zəngəzurun ölkəmizin kənd təsərrüfatına reinteqrasiyasına başlanılıb. Bu istiqamətdə həyata keçirilən layihələr nəticəsində indiyədək 100 min hektara yaxın sahə əkinə cəlb olunub.**



Qısa müddət ərzində həmin əkin dövriyyəsinin, təqribən, yarısında kənd təsərrüfatı işlərinin görülməsi məqsədilə texnika və digər istehsal vasitələri ilə təminat yüksək səviyyədə həyata keçirilib, taxıl sahələrində pivot suvarma infrastrukturunun qurulmasına başlanılıb. İlkin qiymətləndirilməyə əsasən, Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilən ərazilərində məskunlaşma, bərpa və inteqrasiya prosesləri başa çatdıqdan sonra, təqribən, 150 min hektar əkin sahəsi dövriyyəyə cəlb olunacaq. Mövcud əkin strukturu nəzərə alınmaqla bu sahələrin, təqribən, 100 min hektarı taxıl istehsalına yönəldiləcək. Şübhəsiz ki, bu, həm ərzaq təminatı, həm də heyvandarlığın yem bazasının yaxşılaşdırılmasnda əhəmiyyətli rol oynayacaq.

Hesablamalara görə, regionda kənd təsərrüfatı istehsalının bərpası hesabına ölkə üzrə ümumi kənd təsərrüfatı məhsullarının istehsalı 8-10 faizdən çox artacaq. Eyni zamanda, strateji əhəmiyyətli su ehtiyatlarının yerləşdiyi ərazilərin işğaldan azad edilməsi nəticəsində yeni sahələrin suvarılması gerçəkləşdiriləcək ki, bu da bütövlükdə, ölkədə kənd təsərrüfatının inkişafına müsbət təsir göstərəcək.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında minaların təmizlənməsi prosesi ilə paralel böyük potensiala malik ərazilərin yenidən əkin dövriyyəsinə qaytarılır. Bu sahələrdə yetişdirilən müxtəlif növ məhsullar ölkədə aqrar sahənin inkişafına təkan verməklə bərabər, bu sahədə idxaldan asılılığı aşağı salır. Artıq bu istiqamətdə davamlı layihələr həyata keçirilir. Regionda tarixən mövcud olan üzümçülük, tütünçülük, baramaçılıq və arıçılıq sahələrinin bərpası və genişləndirilməsi ilə yanaşı, intensiv meyvəçilik sahəsi də inkişaf etdirilir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin 7 ayında Qarabağ iqtisadi rayonunda dənli və dənli paxlalı bitkilər üzrə məhsul yığımı 395 min ton, məhsuldarlıq hər hektarda 37,2 sentner (ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 28,4 faiz və 9,1 çox) olub. Şərqi Zəngəzur bölgəsində isə bu sahədə məhsul yığımı 9 min ton, məhsuldarlıq hər hektarda 17,3 sentnerə (illik müvafiq olaraq 17,6 faiz və 28,2 faiz çox) yüksəlib.

Ümumilikdə, 2025-ci ilin yanvar – iyul aylarında Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı istehsalında müsbət meyllər üstünlük təşkil edib. Xüsusən Qarabağ iqtisadi rayonunda dənli bitkilər, kartof və tərəvəz üzrə məhsul yığımı artım tempi ilə diqqət çəkib. Şərqi Zəngəzurda da kənd təsərrüfatı potensialının genişləndirilməsi istiqamətində də müəyyən layihələrin icrasına xüsusi önəm verilib.

Beləliklə, ölkənin işğaldan azad edilmiş ərazilərinin potensialından istifadə olunması bu bölgədə kənd təsərrüfatının inkişafına müsbət təsir göstərəcək, iqtisadiyyatımıza yeni töhfələrini verəcək. Respublikamızın idxaldan asılılığının azalması isə milyonlarla dollar valyutanın qənaət edilməsinə və ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasına gətirib çıxaracaq.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur ərazilərində iqtisadi, eləcə də aqrar investisiya mühitinin yaradılması üçün növbəti mərhələ sayılan fiziki infrastrukturun böyük hissəsi artıq qurulub. İşğaldan azad olunmuş ərazilər elektrik enerjisi ilə tam təmin olunub. Bu iqtisadi rayonlar ölkənin vahid enerji şəbəkəsinə qoşulub. Nəqliyyat infrastukturu tam sürətlə bərpa olunmağa başlayıb və bu sahədə indiyədək genişmiqyaslı layihələr gerçəkləşdirilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ilə təmin olunması məqsədilə dövlət proqramında su anbarlarının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının, subartezian quyularının, hidroqovşaqların və digər su təsərrüfatı obyektlərinin mərhələli şəkildə təmiri, bərpası və yenilərinin tikintisinin 2026-cı ilin sonunadək yekunlaşdırılması planlaşdırılıb.

Bölgədə aqrar sektorun inkişafı istiqamətində həyata keçirilən layihələrdən bəhs edərkən "Araz Vadisi İqtisadi Zonası"nın fəaliyyətinə də toxunmaq istərdik. Xatırladaq ki, təməli dövlətimizin başçısı tərəfindən qoyulan bu aqrar qurum üçün Cəbrayıl rayonu ərazisində 200 hektar sahə ayrılıb. Bu nəhəng təsərrüfat Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 oktyabr tarixli Fərmanı ilə yaradılıb.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında indiyədək 17 sahibkarlıq subyektinə rezidentlik, 3 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Zonada görülmüş işlərə sahibkarlar tərəfindən 35 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın daimi iş yeri yaradılıb.

Zəngilan rayonunda yaradılan "Dost Aqropark"ın fəaliyyətinə gəldikdə isə əvvəlcə onu deyək ki, parkın sürətlə inkişaf etdirilməsi düşməndən təmizlənən ərazilərdə aqrar sektorun inkişafı, kənd təsərrüfatının sənayeləşdirilməsi məqsədi daşıyır. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Aqroparkda birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb.

5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri tikilib və bura 3500 baş cins qaramal gətirilib, eyni zamanda, əkinçilik məhsullarının istehsalına başlanılıb. "Dost aqropark"ın ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərməsi də qarşıya mühüm vəzifə kimi qoyulub. Burada ekosistemin yaradılması üçün, ümumilikdə, 100 milyon dollar dəyərində sərmayə yatırılacağı nəzərdə tutulub.

Sonda onu da qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyət göstərən sahibkarlıq subyektlərinə layihələri uğurla həyata keçirmələri üçün hər cür şərait yaradılıb. Məsələn, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, işğaldan azad olunan ərazilərdə fəaliyyət göstərən sahibkarlara əlavə güzəştlərin tətbiqinə başlanılıb. Bura sosial sığorta haqlarının subsidiyalaşdırılması, düşməndən təmizlənən yaşayış sahələrində məskunlaşaraq işləyən mütəxəssislərə hər il 5 gün əlavə məzuniyyət verilməsi, aylıq vəzifə maaşına əlavələrin hesablanması, 600 manat birdəfəlik müavinət verilməsi, iş icazələrinin alınmasının sadələşdirilməsi kimi imtiyazlar daxil edilib. İqtisadi rayonlarda fəaliyyət göstərən sahibkarların istehsal prosesində istifadə etdikləri bir sıra xammal və materialların idxalı da 10 il müddətinə ƏDV-dən azad olunub.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Şamil Şahməmmədov – 90**

# Qələmin ustadlıq zirvəsi

**Peşəkar jurnalistikamızın tanınmış imzası, "Şöhrət" ordenli qələm sahibi, Əməkdar mədəniyyət işçisi Şamil Şahməmmədov bütün həyatını Azərbaycan publisistikasının inkişafına həsr edən mətbuat fədailərindən olub. İstər vaxtilə çalışdığı "Bakı", "Kommunist" və digər qəzetlərin redaksiyalarında, istərsə də 1995–2002-ci illərdə baş direktoru olduğu Azərtac Dövlət İnformasiya Agentliyində onun adı həmişə qədirbilənliklə anılır, haqqında xoş xatirələr söylənir. Bugünlərdə ustad qələm sahibinin 90 illik yubileyi ehtiramla qeyd edilir.**



Şamil Məmməd oğlu Şahməmmədov 1935-ci ilin avqustunda Gəncə şəhərində anadan olub. Hələ Bakı Dövlət Universitetinin tələbəsi ikən yeni yaradılan "Bakı" qəzetində işə götürülüb. Orada 30 ildən artıq müddətdə milli jurnalistikamızın görkəmli simalarından olan Nəsir İmanquliyevin rəhbərliyi altında zəngin təcrübə məktəbi keçib. O, əvvəl müxbir, şöbə müdiri, sonra məsul katib işləyib və nəhayət, baş redaktor vəzifəsinədək yüksəlib. "Kommunist"in ("Xalq qəzeti") baş redaktor müavini və Azərtac-da baş direktor olması necə böyük etimad və etibar qazandığına dəlalət edir.

Tanınmış qələm sahibi Şamil müəllim Bakıda 1960–1970-ci illərin ən möhtəşəm tikintilərindən olan metro, funikulyor, Yaşıl Teatr, Mərkəzi Univermağın inşası barədə ilk reportajların müəllifi olub. Onun Bakı Şin zavodunun tikintisindən və Suraxanı neftçilərinin fəaliyyətindən bəhs edən oçerkləri sənədli publisistika nümunələri kimi Yazıçılar İttifaqının "Azərbaycan" ədəbi-bədii jurnalında dərc olunub. Şamil müəllim idman jurnalisti kimi də örnək fəaliyyəti ilə seçilib. Bakıda, Moskvada və Kiyevdə çıxan axşam qəzetlərində, habelə "Ədəbiyyat və incəsənət" mətbu nəşrində, "Ulduz" jurnalında yarışlar barədə operativ icmalları diqqət çəkib. "İşıq" nəşriyyatı onun o vaxt Azərbaycanı Ümumittifaq miqyasında layiqincə təmsil edən futbol komandası haqqında "Neftçi" kitabını kütləvi tirajla çapdan buraxıb.

O, həm də əsl cəsarət nümunəsi idi. 1990-cı ilin 20 yanvar faciəsi ərəfəsində Mərkəzi Komitənin binasında jurnalistlər üçün brifinq keçirilirmiş. Yevgeni Primakov da həmin tədbirdə iştirak edirmiş. Şamil müəllim üzünü Primakova tutaraq deyib: – Bütün günahlar sizdədir. Moskvada ermənilərlə bağrıbadaş olanda, birlikdə yeyib-içəndə bilmirdiniz ki, başımıza nə oyun açacaqlar?" Primakov ondan soruşub ki, – Siz kommunistsiniz? Şamil müəllim deyib ki, bəli. Primakov: – İnanmıram, – söyləyib. – Heç mən də inamıram – deyə Şamil müəllim cavab verib.

**Əməkdar jurnalist Əflatun Amaşovun onun haqqında dedikləri də unudulmaz, ustad qələm sahibinin insani keyfiyyətləri və peşəkarlığı haqqında dolğun təsəvvür yaradır:**

– Şamil müəllim bütövlükdə jurnalistikamızın elə sahəsi olmayıb ki, orada izi, mülahizələri qalan yazılar qələmə almasın. Zərgər dəqiqliyi ilə yazıları oxuculara təqdim edir, xüsusilə ədəbi redaktənin nə olduğunu əyani nümunəsi ilə göstərirdi... İşə prinsipial yanaşması ilə seçilirdi. Rəhbərlikdə müdrik sima idi və hər kəsə qayğılı münasibətin nümunəsi də məhz o idi.

Əsl jurnalistika məktəbi olan "Bakı" qəzetində yetişib formalaşmış Şamil Şahməmmədovun püxtələşməsində həmin qəzetin rəhbəri, bir çox jurnalistlərin ustadı və xeyirxahı Nəsir İmanquliyevin böyük rolu olub. Şamil müəllim onun rəhbərliyi altında qəzetdə müxbirlikdən redaktor müavinliyinə qədər yüksəlmişdi. Şamil Şahməmmədovu xatırlayarkən mütləq Nəsir müəllimin də işıqlı xatirəsi göz önünə gəlir. Onlar jurnalistikamızın sütunları idi. İllər keçir, nəsillər bir-birini əvəz edir, onların xidmətləri unudulmur, işıqlı xatirələri daim qəlbimizi isidir.

Zaman hər şeyi amansızcasına keçmişə çevirir, keçmişi isə heçlikdən yaddaş xilas edir. Belə olan halda xatırlamaqdan gözəl nə ola bilər?!

**Həmkarımız İlqar Həsənov xatırlayır ki, Şamil müəllim ciddi olsa da, zarafatından da qalmazdı:**

– "Bakı" qəzetində işlədiyi zaman əməkdaş Ağəddin Mansurzadə Şamil müəllimə bir müəllifin şeirini təqdim etmişdi. Şeirə baxıb zəif olduğunu görən Şamil müəllim bədahətən dedi:

**Yoldaş Ağəddin!**
**Yaxşı ki, insanın çiynində var baş,**
**Şeiri redaktə et, sonra ver, qardaş!..**

Biz də xatırlayırıq ki, 10 il əvvəl Azərbaycan Mətbuat Şurasının təmsilçiləri təqaüddə olan qocaman jurnalisti evində ziyarət edərək, nüfuzlu qələm sahibinə 80 yaşı münasibətilə təbriklərini çatdırdılar. Çay süfrəsi arxasında səmimi söhbət zamanı Mətbuat Şurasının ovaxtkı sədri Əflatun Amaşov, Ahıl Jurnalistlər Məclisinin rəhbəri Yusif Kərimov və digər qələmdaşları Şamil Şahməmmədovun xidmətlərini bir daha yada saldılar, onun məhsuldar jurnalist və redakror fəaliyyətinin çağdaş media işçilərinə örnək olduğunu söylədilər. Siyasi təbəddülatlarla dolu olan 90-cı illərdə Heydər Əliyevin hakimiyyətə qayıtdıqdan sonra onun cəfakeşliyini yüksək qiymətləndirərək, agenliyə baş direktor təyin etməsi qocaman jurnalistin ömrünün şərəf kitabı kimi vərəqləndi. Sonda yubilyara qurumun xüsusi xatirə diplomu təqdim edildi. Əlbəttə, bu ziyarət və sayğı milli jurnalistikamızda saç ağartmış veteran üçün əsl könül xoşluğu, qədirbilənlik rəmzi oldu.

**Əməkdar jurnalist Tahir Aydınoğlunun dedikləri:**

– Təcrübəli jurnalist kimi bir vaxt ölkənin avanqard qəzeti sayılan "Kommunist"ə ("Xalq qəzeti") dəvət olunmuş, burada redaktor müavini işləmiş Şamil müəllimi tələbkar mətbuat təşkilatçısı, mahir qələm sahibi kimi səciyyələndirməliyik. Sonrakı illərdə də Şamil müəllim bizim redaksiya ilə sıx əlaqədə çalışdı, Azərtacın baş direktoru olanda da ünsiyyəti azaltmadı. Onun bizim redaksiyada və Azərtacda çalışdığı dövr azad medianın formalaşması və inkişafı dövrü oldu.

Ömrünün ahıl çağında – 2021-ci ilin yayında dünyasını dəyişmiş Şamil Şahməmmədovun əziz xatirəsi daim ehtiramla yad edilir. Onun haqqında 3 il əvvəl çıxmış "Şamil Şahməmmədov. Sərt, mərd, həmdərd" kitabında (hazırlayan Züleyxa Nadir, redaktor Zemfira Məhərrəmli) ibrətamiz xarakter cizgiləri hərtərəfli təsvirini tapıb. Bu kitabın adı Şamil müəllimin xarakterindəki xüsusiyyətlərin bir növ toplusudur.

Şamil Şahməmmədovun həyat və fəaliyyəti əsl jurnalistika məktəbi idi.

**Ruhu şad olsun!**

***Əli NƏCƏFXANLI***
***XQ***

*Azərbaycan filmotekası*

# 70 yaşlı "Bəxtiyar"

**Bir çox mənbələrdə tammetrajlı "Bəxtiyar" bədii filmi 1955-ci ildə çəkilmiş yeganə Azərbaycan ekran işi kimi təqdim olunub. Əslinə qalsa, həmin il daha bir film – "Görüş" də ekranlaşdırılıb, amma onun primyerası növbəti ilin fevral ayına təsadüf edib. "Bəxtiyar" isə ilk dəfə məhz 1955-ci ildə göstərilib.**

Ümumiyyətlə, 1950-ci illərin 2-ci yarısı Azərbaycan kinematoqrafının ən parlaq dövrlərindən sayılır. Həmin vaxt "Bəxtiyar" və "Görüş"lə bərabər, "Qara daşlar", "O olmasın, bu olsun", "Bir məhəllədən iki nəfər", "Qızmar günəş altında", "Kölgələr sürünür", "Onun böyük ürəyi", "Ögey ana", "Uzaq sahillərdə", "Bir qalanın sirri", "Onu bağışlamaq olarmı?" kimi məşhur tammetrajlı bədii filmlər də həyata vəsiqə alıb.









Bu il növbəti yubiley yaşı olan "Bəxtiyar" filmi Bakı Kinostudiyasında istehsal edilib və rejissoru gələn ay 105 yaşı tamam olacaq görkəmli sənətkar Lətif Səfərovdur. Bu, rejiossorun kinoda ilk böyük müstəqil işi idi. Sonra o, "Qızmar günəş altında" (1957), "Leyli və Məcnun" (1961) kimi filmləri də ərsəyə gətirib.



"Bəxtiyar" filmi gözəl səsə malik neftçi Bəxtiyar Muradovun həyatından bəhs edir. Ekran əsərində əsas rolları Rəşid Behbudov, Ağasadıq Gəraybəyli, Məmmədrza Şeyxzamanov, İsmayıl Əfəndiyev, Tamara Çernova və Faiq Mustafayev oynayıblar.

Filmin məzmununu xatırlayaq: Dostları ilə alma bağına oğurluğa gedən Bəxtiyar orada hasarın üstünə çıxıb mahnı oxuyur. Bu, bağın sahibi – konservatoriyanın professoru Rəcəbovun (M.Şeyxzamanov) diqqətini cəlb edir. Onu tutub evə gətirir və oktavalarda səsini yoxlayıb istedadını kəşf edir. Söhbət zamanı professor biləndə ki, Bəxtiyar və dostları almaları yaralı əsgərlər üçün yığırlarmış, səxavət göstərib özü də onlara çoxlu alma verir...

Amma Bəxtiyar xüsusi musiqi təhsili almaqla bağlı ona verilən məsləhətlərə məhəl qoymur və valideynlərinin yolu ilə gedərək neftçi olur. İş elə gətirir ki, o, hər şeydə mənfəət axtaran fırıldaqçı, əsl incəsənətdən uzaq olan klub müdiri Ağabala (A.Gəraybəyli) ilə rastlaşır. Ağabala Bəxtiyardan estrada müğənnisi kimi bəhrələnmək məqsədilə onun konsertlərini təşkil edir və bu yolla çoxlu pul qazanır. Nəticədə, Bəxtiyarın səsi tutulur. Nəhayət, Bəxtiyar müğənniliyin böyük sənət olduğunu başa düşüb, bu işlə ciddi məşğul olmağa başlayır.

Uşaqlıq dostları Yusiflə (F.Mustafayev) Saşa (T.Çernova) məktəbi bitirib Moskvaya oxumağa getməyə hazırlaşırlar. Buna görə Bəxtiyar sevdiyi Saşadan inciyir. Sonra onlar bir neçə dəfə rastlaşırlar. Lakin Yusif sevgililərin barışmasına mane olur. Saşa Bəxtiyarın konsertində elə başa düşür ki, şöhrət onun aşiq olduğu saf oğlanın gözlərini bağlayıb və onu fitə basır. Buna görə də həmin gecə onun ucbatından konsert yarımçıq qalır. Amma taleyin qəribə oyunları onların bir-birinə məhəbbətini azaltmır. Sonda dostların köməyi ilə Bəxtiyarla Saşa bir-birinə qovuşur. Bəxtiyarın atasının cəbhə dostu Rza İsmayılov isə onu fırıldaqçıların əlindən alıb doğru yola yönəldir. Film "Əziz dost" mahnısı ilə sona yetir.

Nə qədər maraqlı süjet xətti üzərində qurulsa da, filmin mahnılarını bəstəkar Tofiq Quliyevin yazması, ən başlıcası isə əsas rolda güclü və təmiz səsə malik müğənninin – Rəşid Behbudovun çəkilməsi kinolentin uğurunu təmin edib. Ssenaridə baş qəhrəmanın daxili aləminin açılmasına az yer ayrılsa da, R.Behbudov Bəxtiyarın hiss və həyəcanlarını, çətin anlarda sarsıntılarını, mənəvi aləmini bütöv və parlaq şəkildə açmağa nail olub. Bu rolu Əli Zeynalov səsləndirib, amma fərq qətiyyən hiss olunmur.

Filmdə mənfi çalarlı Yusif obrazı da yaddaqalandır. Opera müğənnisi olan Faiq Mustafayev aktyorluq bacarığı sayəsində bu obrazı yetərincə məşhurlaşdıra bilib. Filmdəki Yusif həyatda nə istədiyini bilən, ədəbaz, özündən razı və paxıl birisidir. Bəxtiyarla uşaqlıqdan birlikdə böyümələrinə baxmayaraq, elə əvvəlindən ona paxıllıq edir. Böyüyəndən sonra Saşanın Bəxtiyarı seçməsi onların arasında olan bütün körpüləri dağıdır və Yusif Bəxtiyara düşmən gözü ilə baxır. Moskvada ticarət məktəbini bitirdikdən sonra o həyatda öz yerini tapır, hər şeyi əldə edir, təkcə Saşanın qəlbindən başqa.

"Bəxtiyar"ın yaranma taleyi də çətin olub. Belə ki, ekran işi Rəşid Behbudovun həyatı əsasında qələmə alınsa da (ssenari müəllifləri Boris Laskin və Nikolay Roykov), filmdə müğənninin Bəxtiyar roluna çəkilməsinə etiraz edənlər çoxluq təşkil edib. Yaxşı ki, yaradıcı heyətin dəstəkçiləri olub. Xüsusilə, mahnıların mətninin bir qismini yazan şair Rəsul Rzanın və filmin bəstəkarı Tofiq Quliyevin fəallığı sayəsində rejissor istənilən nəticəni əldə edə bilib. Həmçinin, kinolentin "Ən xoşbəxt gün", "Sevimli mahnı", "Mahnı ilə eldən-elə" adları, nəhayət, "Bəxtiyar"la əvəz edilib.

Onu da deyək ki, operatoru Arif Nərimanbəyov, rəssamları Cəbrayıl Əzimov və Elbəy Rzaquliyev, rejissor assistenti Məmməd Əlili olan "Bəxtiyar" o zaman yenicə yaradılmış Azərbaycan televiziyasında nümayiş etdirilən ilk film kimi də tarixə düşüb. Sonra isə keçmiş SSRİ-nin hər tərəfində göstərilib. Bu gün də dramatik, musiqili, komik ekran əsərinə tükənməz maraqla baxılır. Çünki yaşlı seyrçilərdə nostalji hisslər yaradan bu şən və məzmunlu kinoda sədaqətli dostluq bağları, hicran, vüsal, saf duyğular öz əksini tapıb.

***Ə.DOSTƏLİ***
***XQ***

*Turizm yenilikləri*

# İçərişəhərdə avtobusla səyahət

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində ziyarətçilərin rahatlığı üçün tədbirlər görülməkdə davam edir. Yeni nəqliyyat xidmətindən – fəaliyyətə başlayıb. Ekoloji təmiz, əlverişli və sürətli hərəkət etmək üçün qolfkar-avtobuslardan istifadənin tətbiqi bu baxımdan təqdirəlayiqdir.**



Bakı sakinləri və qonaqlar bu nəqliyyat növü ilə əsas marşrutlar üzrə rahat gəzə bilirlər.

Marşrut xətti Qız Qalasının qarşısından başlayaraq Qüllə küçəsi, Kiçik Qala, Vəli Məmmədov, Asəf Zeynallı və Böyük Qala küçələrindən keçir, daha sonra yenidən Qız Qalası önündə yerləşən son dayanacaqda tamamlanır. Qoruğun ən çox istifadə olunan yollarını əhatə edən bu xətt üzrə ümumilikdə 10 dayanacaq müəyyən edilib. İlkin mərhələdə iki qolfkar xəttə buraxılıb. İstifadəçi sayı artdıqca xəttə buraxılacaq nəqliyyat vasitələri də artırılacaq.

Marşrutun planlaşdırılmasında turistik və mədəni obyektlərə yaxınlıq başlıca amil kimi götürülüb. Sərnişinlər bu nəqliyyat vasitəsindən istifadə edərək Qız Qalası, Şirvanşahlar Sarayı, Maqsud İbrahimbəyovun ev-muzeyi kimi mədəni məkanlara rahatlıqla gedə bilirlər.

Qolfkar-avtobuslardan hər kəs istifadə edə bilər. 10 yaşına qədər uşaqlar və yaşı 60-dan yuxarı olan sərnişinlər üçün xidmət ödənişsizdir. Digər sərnişinlər üçün qiymət 1 manatdır. İlkin olaraq iş saatları günortadan axşama qədərdir.

Elektriklə işləyən qolfkar-avtobuslar ətraf mühitə zərər vermir, səs-küy yaratmır, tarixi abidələrin qorunmasına uyğun ekoloji standartlara cavab verir və İçərişəhər ərazisində nəqliyyat vasitələrinin hərəkət intensivliyini azaltmağa xidmət edəcək.

***XQ***

# "Kibernetika və informatikanın problemləri"

**Avqustun 26-dan 28-dək Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutunda "Kibernetika və İnformatikanın Problemləri" mövzusunda 6-cı beynəlxalq konfrans (PCI 2025) keçiriləcək.**




İnstitutdan bildirilib ki, 2006-cı ildən etibarən Bakı şəhərində keçirilən beynəlxalq konfransın əsas məqsədi elmi-tədqiqat müəssisələri, universitetlər, beynəlxalq təşkilatlar, dövlət və özəl sektorlardan olan nümayəndələri bir araya gətirərək kibernetika və informatika sahələrində mövcud elmi və praktiki problemlərin müzakirə edilməsidir.

Hibrid formatda keçiriləcək konfransda Türkiyə, ABŞ, Polşa, Fransa, Belçika, Gürcüstan, Almaniya, Avstraliya, Rusiya, Ukrayna, Estoniya, İsveçrə, Bolqarıstan, Özbəkistan, Qazaxıstan, Yaponiya və digər ölkələrin aparıcı alimlərinin iştirakı gözlənilir.

***Qabil ƏLİYEV***
***XQ***

*Beynəlxalq həyat*

# Ukraynanın “qırmızı xətləri”

## *Yeni təhlükəsizlik arxitekturası necə qurulacaq?*

**Ukrayna prezidenti Vladimir Zelenski bir daha bəyan edib ki, Kiyev Rusiya tərəfindən işğal olunmuş ərazilərin anneksiyasını heç vaxt tanımayacaq. Onun sözlərinə görə, bu, yalnız milli suverenlik məsələsi deyil, həm də beynəlxalq hüququn qorunması baxımından prinsipial mövqedir. Əgər Ukrayna güzəştə getsə, bu, qlobal miqyasda “güclünün haqqı” qaydasını leqallaşdırmış olardı ki, bu da Avropa və dünya üçün təhlükəli presedent yaradardı.**



Zelenski, həmçinin qeyd edib ki, Rusiyanın genişmiqyaslı müharibədə strateji üstünlük qazanmaq imkanları məhduddur. O xatırladıb ki, 3 ildən artıq davam edən müharibəyə baxmayaraq, Moskva Donetsk vilayətinin yalnız üçdə birinə nəzarəti ələ keçirə bilib. Bu, Rusiyanın uzunmüddətli resurslarının tükəndiyini və sürətli hərbi qələbə perspektivinin olmadığını göstərir.

Prezidentin vurğuladığı “qırmızı xətlər” təkcə ərazilərin geri qaytarılması ilə məhdudlaşmır. Ukraynanın NATO-ya qəbul olunmaması məsələsində ABŞ-ın mövqeyi əvvəlcədən bəlli idi, lakin Zelenski qeyd edir ki, bu, Ukraynanın təhlükəsizlik zəmanətlərini istisna etmir. Qərb müttəfiqlərinin hazırda müzakirə etdiyi mexanizmlər – xüsusən də İsrail modelinə bənzər kollektiv dəstək sistemi – NATO-nun 5-ci maddəsinə tam alternativ olmasa da, praktik baxımdan Ukraynanın müdafiəsini gücləndirə bilər.

Bu zəmanətlər Ukraynaya hücum halında Qərb dövlətlərini 24 saat ərzində hərəkətə keçməyə, həm iqtisadi, həm də hərbi yardım göstərməyə məcbur edəcək. Ən mühümü isə odur ki, artıq 30-a yaxın dövlət bu prosesdə iştirak etməyə hazır olduğunu bəyan edib. Bu, qlobal təhlükəsizlik arxitekturasında yeni bir modelin formalaşması kimi dəyərləndirilə bilər: NATO üzvlüyü olmadan da kollektiv müdafiə mexanizminin yaradılması.

Zelenski Ukraynanın yeni uzaqmənzilli raketi barədə də məlumat verib. O, xüsusi olaraq bildirib ki, bu raket proqramı Ukraynanın öz müdafiə qabiliyyətini gücləndirməkdir. “Flamingo” uzaqmənzilli raket proqramı məhz bu məqsədə xidmət edir. 3 min kilometr uçuş məsafəsinə malik bu sistem Ukraynanın təkcə özünü müdafiə etməsinə deyil, həm də Rusiya üçün strateji balansı dəyişdirməsinə imkan verə bilər. Əgər proqram planlaşdırıldığı kimi inkişaf etsə, 2026-cı ildən etibarən Ukrayna postsovet məkanında öz hərbi texnoloji üstünlüyünü ortaya qoya bilər.

Moskva ilə mümkün danışıqlara gəldikdə isə Zelenski kompromissiz mövqeyini qoruyur. O bildirir ki, yalnız neytral ölkələrdə – İsveçrə və ya Avstriyada görüş baş tuta bilər. Budapeştin təklif olunması isə Ukraynanın etimadını qazanmayıb, çünki Macarıstan müharibə boyu Kiyevə dəstək verməyib. Bu, əslində, Zelenskinin diplomatiyada “etibarlı vasitəçi” konsepsiyasına sadiqliyini göstərir.

Ukrayna Prezident Ofisinin rəhbəri Andrey Yermak da Vladimir Putin və Vladimir Zelenskinin görüşü üçün mümkün yerlər kimi Vatikan, Cenevrə, İstanbul və Səudiyyə Ərəbistanını göstərib. Onun sözlərinə görə, Budapeşt Kiyev üçün “sevilən istiqamətlər sırasına daxil deyil”. “Corriere della Sera” qəzetinə verdiyi müsahibədə Yermak əvvəlcə Rusiya və Ukrayna prezidentləri arasında danışıqların, sonra isə ABŞ prezidenti ilə üçtərəfli sammitin planlaşdırıldığını bildirib. Görüşün harada keçiriləcəyi ilə bağlı suala cavab olaraq hələlik bilmədiyini deyib. Eyni zamanda, müsahibənin mətnindən onun ikitərəfli, yoxsa üçtərəfli görüş haqqında soruşulduğu aydın deyil: “Bir neçə yer nəzərdən keçirilir: Cenevrə, İstanbul, Vatikan, Səudiyyə Ərəbistanı... Əlbəttə ki, biz bunun Avropa olmasını istərdik”.

Bu arada ABŞ prezidenti Donald Trampın sülh sazişi çərçivəsində “ərazi mübadiləsi” təklifi okeanın o tayında da geniş müzakirələrə səbəb olub. “The Hill” nəşrinin məlumatına görə, The Economist/YouGov-un sorğusunda iştirak edən amerikalıların 68 faizi müharibə başa çatdıqdan sonra Rusiyanın Ukrayna ərazisinin heç bir hissəsini almamalı olduğunu deyib. Respondentlərin 21 faizi bu məsələdə fikrini bildirməyib, yalnız 5 faizi müəyyən ərazilərin, 2 faizi isə Ukraynanın yarısının Rusiyaya verilməsini dəstəkləyib.

Hərbi ekspert İvan Stupak xatırladıb ki, ərazi mübadiləsi hüquqi, fiziki və hərbi baxımdan qeyri-mümkündür. Onun sözlərinə görə, Kreml hərbi uğursuzluqlar səbəbindən bu mövzunu gündəmdə saxlayır. “Axios” nəşri isə yazır ki, prezident Tramp Putinə ərazi məsələsini yalnız Zelenski ilə müzakirə etməyi məsləhət görüb və onu “realist” olmağa çağırıb. Eyni zamanda, Putinin beynəlxalq təhlükəsizlik zəmanətləri ideyasına etiraz etmədiyi, amma zəmanətçilər sırasına Çini də daxil etmək istədiyi bildirilir.

Bir sözlə, prezident Zelenskinin açıqlamaları göstərir ki, Ukrayna təkcə ərazilərinin müdafiəsi uğrunda deyil, həm də beynəlxalq sistemin gələcəyi uğrunda mübarizə aparır. Qərb dövlətlərinin dəstəyi Ukraynanın mövqelərini möhkəmləndirsə də, əsas yük hələ də Ukraynanın öz üzərindədir. Beləliklə, bu müharibə yalnız regionun deyil, bütövlükdə XXI əsrin geosiyasi qaydalarının müəyyənləşməsində həlledici rol oynayacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Azərbaycan ABŞ-da Dünya birincisi oldu

## *Məktəblilərimiz beynəlxalq bilik yarışında möhtəşəm qələbə qazanıblar*






**…Heydər Əliyev adına Beynəlxalq Hava Limanında əlləri gül-çiçəklə dolu valideynlər Amerika kimi böyük dövlətdə keçirilən yarışdan çoxlu medallar, sertifikatlar, hədiyyələrlə dönən övladlarını qarşılamağa gəlmişdilər. Nəhayət, Azərbaycan bayrağını çiyinlərinə sərmiş məktəblilər göründülər. Alqış səsləri, “Sizinlə fəxr edirik”, “Uşaqlar, afərin!” – şüarları göyə yüksəldi. Hər kəs öz balasını bağrına basdı.**

Hava limanında yaşanan bu izdihamın səbəbi vardı. Belə ki, 2025-ci ilin yayı Azərbaycan məktəbliləri üçün uğurlu oldu. Onlar iyul ayında ABŞ-ın Nyu Cersi ştatında yerləşən Montclair Universitetində keçirilən, 70-dən çox ölkəni təmsil edən şagirdlərin iştirak etdiyi “TeenEagle” Beynəlxalq ingilis dili müsabiqəsinin finalında qələbə qazandılar.

**Beynəlxalq yarışda şagirdlərlə yol yoldaşı olan qrup rəhbərləri Ləman Axundova və Yaşar Həsənovdan hisslərini bizmlə bölüşməyi xahiş etdik. Ləman Axundova dedi:**

– Bu, çox böyük yarışmadır. Dünyanın onlarla ölkəsini təmsil edən həmyaşıdları ilə yarışa qatılmaq böyük məsuliyyətdir. Amma yüksək nailiyyət əldə edəcəyimizə inanırdıq. Azərbaycana qalib olaraq dönmək sözlə ifadə olunmayan hissdir. Uşaqların qazandıqları uğurlar, üzlərindəki sevinc onlara uzun yolçuluğun bütün yorğunluğunu unutdurub.

Yarış 4 əsas istiqamətdə–debat, yazı, spellinq (imla) və speakinq (nitq bacarığı) üzrə təşkil olunmuşdu. Şagirdlərimizin hər biri qızıl, gümüş, Şərəf medalı, kuboklar qazandılar. Olimpiadanın məqsədi şagirdlərdə ingilis dilinə marağın daha da artmasına, dünya görüşlərinin inkişaf etməsinə dəstək olmaqdır.

**Digər qrup rəhbəri Yaşar Zeynalov yarışla bağlı fikirlərini belə bildirdi:**

– İngiltərə və Amerikada akkreditasiyadan keçən bu yarışma ölkəmizdə “TeenEagle Azərbaycan” adı altında fəaliyyət göstərir. Şagirdlərimiz həm İngiltərə, həm Amerika finallarında iştirak ediblər.

Bu yarışda Azərbaycan təmsilçiləri bütün kateqoriyalarda yüksək nəticələr göstərərək ümumilikdə 36 medal və 12 kubok qazandılar. Ən qürurverici məqam isə Azərbaycanın dünya üzrə birinci yer qazanması oldu.

**Olimpiada iştirakçısı, 6-cı sinif şagirdi Fəxrəddin Məmmədzadə:**

– Noyabr ayında “TeenEagle” yarışmasına qoşuldum, 3–4 ay hazırlaşdıqdan sonra fevral ayında online-raundda gümüş medal qazandım. Bundan sonra ölkəmizi beynəlxalq arenada təmsil etmək üçün qlobal raunda qoşuldum. 4 kateqoriyada imtahan verdim. Nəticədə 2 kateqoriya üzrə gümüş medal, debatlar üzrə isə Şərəf medalına layiq görüldüm. Fəxr edirəm ki, Azərbaycan Bayrağını qürurla daşımışıq.

**Mehri Mustafazadə:**

– Müxtəlif kateqoriyalarda 1-ci, 3-cü yerləri tutdum, medallar qazandım. Ölkəni layiqincə təmsil etmək ayrı bir hissdir. İlk dəfədir ki, ölkəmi Amerikada təmsil edib yüksək nailiyyət əldə etmişəm. Çox sevinirəm.

Azərbaycan komandasının uğurları bununla da bitməyib. Ləman müəllim deyir ki, onların şəkilləri dünyanın ən məşhur məkanlarından biri olan Nyu-Yorkun “Times Square” meydanında nümayiş etdirildi. Bu, həm şagirdlər, həm də müəllimlər üçün unudulmaz anlardan biri oldu. Amerika vətəndaşları böyük maraqla həmin nümayişə baxıb heyranlıqlarını gizlətmirdilər.

Montclair Universitetində keçirilən möhtəşəm mükafatlandırma mərasimində isə Azərbaycanın ABŞ-dakı konsulu Ceyhun Novruzov da iştirak edib. O, Azərbaycan məktəblilərinin bu uğurları ilə qürurlandığını bildirib və qalibləri təbrik edib. Bu olimpiadanın həm yarış iştirakçıları, həm də bütün Azərbaycan təhsili üçün xüsusi qürur mənbəyinə çevrildiyini deyib.

Qazanılan bu böyük nailiyyət bir daha göstərir ki, Azərbaycan məktəbliləri yalnız öz ölkəsində deyil, eyni zamanda, beynəlxalq arenada da istedad, bilik və əzmkarlıq nümayiş etdirməyi bacarır və xarici ölkələrdə yaşayan həmyaşıdlarından bu keyfiyyətlərinə görə seçilirlər.

***Zərifə BƏŞİRQIZI***
***XQ***


## “SAVALAN” ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə hesabatı

*manatla*

| | Qalıq | |
|---|---|---|
| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
| **AKTİVLƏR** | | |
| ***Uzunmüddətli aktivlər*** | | |
| Torpaq, tikili və avadanlıqlar | 634,004.26 | 662,564.26 |
| Qeyri-maddi aktivlər | | |
| İnvestisiyalar | 257,529.28 | |
| Uzunmüddətli debitor borcları | | |
| Sair uzunmüddətli aktivlər | | |
| **Cəmi** | ***891,553.54*** | ***662,564.26*** |
| ***Qısamüddətli aktivlər*** | | |
| Ehtiyatlar | 232,911.69 | 232,911.69 |
| Qısamüddətli debitor borcları | 358,456.75 | 404,711.58 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 128,328.65 | 122,642.30 |
| Digər aktivlər | 544,862.16 | 528,186.44 |
| Sair qısamüddətli aktivlər | | |
| Gələcək dövrün xərcləri | | |
| Sair qısamüddətli maliyyə aktivləri | | |
| **Cəmi** | ***1,264,559.25*** | ***1,288,452.01*** |
| **CƏMİ AKTİVLƏR** | ***2,156,092.79*** | ***1,951,016.27*** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 2,416,824.00 | 2,416,824.00 |
| Kapital ehtiyatları | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | - 296,525.74 | - 500,265.27 |
| **CƏMİ KAPİTAL** | ***2,120,298.26*** | ***1,916,558.73*** |
| **ÖHDƏLİKLƏR** | | |
| *Uzunmüddətli öhdəliklər* | | |
| *Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər* | | |
| *Gələcək dövrün gəlirləri* | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | |
| ***Qısamüddətli öhdəliklər*** | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Qısamüddətli borclar (alınmış avanslar) | | |
| Vergilər və sair məcburi ödənişlər üzrə öhdəliklər | 35,774.53 | 34,457.54 |
| Qısamüddətli kreditor borcları | 20.00 | |
| Sair qısamüddətli öhdəliklər | | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | ***35,794.53*** | ***34,457.54*** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | ***2,156,092.79*** | ***1,951,016.27*** |

**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT**

| | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 701 739,91 | 652 069,34 |
| Satışın maya dəyəri | - 482,895.88 | - 477,506.99 |
| **Ümumi mənfəət** | **218,844.03** | **- 174,562.35** |
| Sair gəlirlər | 61,020.86 | 50,874.59 |
| Kommersiya xərcləri | | |
| İnzibati xərclər | | |
| Sair əməliyyat xərcləri | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | **279,864.89** | **225,436.94** |
| Maliyyə gəlirləri | | |
| Maliyyə xərcləri | | |
| Fövqəladə gəlirlər | | |
| Fövqəladə xərclər | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | |
| Vergidən azad olan gəlirlər | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | - 25,190.48 | - 24,183.66 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **254,674.41** | **201,253.28** |
| Keçmiş illərin zərəri | - | |
| **Vergiyə cəlb olunan mənfəət** | 254,674.41 | **201,253.28** |
| Mənfəət vergisi | - 50,934.88 | - 40,250.66 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **203,739.53** | **161,002.62** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | **0.21** | **0.17** |
| Azlıqların payı | | |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | |
| 1 (bir) səhmin əsas mənfəəti | **0.17** | **0.13** |

**Müstəqil Auditorun Maliyyə Hesabatlarının Auditinə Dair Hesabatı “SAVALAN” Açıq Səhmdar Cəmiyyətinin Rəhbərliyinə**
**Şərti müsbət rəy**

Mən, “SAVALAN” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - şirkət) 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Məncə, hesabatımın “Şərti müsbət rəy üçün əsaslar” bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları şirkətin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.



## “Bakı Yoltexnikatəmir” ASC səhmdarlarının nəzərinə!

29 sentyabr 2025-ci il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü ilin yekunlarına dair idarə heyətinin hesabatı.
2. Digər məsələlər.

***“Bakı Yoltexnikatəmir” ASC-nin idarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 176 (30870) 22 avqust 2025-ci il, cümə

İDMAN

## “Qəbələ” klubu cərimələnib




**AFFA İntizam Komitəsi “Qəbələ” klubunu cərimələyib. Bu barədə Peşəkar Futbol Liqasının rəsmi saytı məlumat yayıb.**

Xəbərdə qeyd edilir ki, Misli Premyer Liqasının I turunun “Karvan-Yevlax” – “Qəbələ” oyununda 4 futbolçusu sarı vərəqə aldığı üçün qonaq komanda 700 manat cərimələnib.

Qeyd edək ki, mövsümün açılış qarşılaşması bərabərliklə yekunlaşıb - 1:1.

## Cüdoçu qızlarımız İspaniya toplanışında



**Gənc qızlardan ibarət cüdo üzrə Azərbaycan millisi İspaniyanın Valensiya şəhərində keçirilən beynəlxalq təlim-məşq toplanışına qatılıb. Bu barədə Azərbaycan Cüdo Federasiyasından məlumat verilib.**

Hazırlıq prosesinə yığmanın baş məşqçisi Amina Abdellatif və böyük məşqçi Saşa Herkenrat-Vimar rəhbərlik edirlər.

Qeyd edək ki, qitə birinciliyi sentyabrın 4-dən 7-dək Slovakiyanın paytaxtı Bratislavada keçiriləcək.

## Kişi karateçilərimiz Türkiyədə yarışacaqlar



**III MDB Oyunlarına hazırlıq məqsədilə idman karatesi (WKF) üzrə Azərbaycan milli komandası Türkiyəyə yola düşüb.**

Yığmamız avqustun 21-dən 24-dək İstanbulda təşkil olunacaq “Uluslararası Marmara Cup Turnuvası” beynəlxalq yarışında gücünü sınayacaq. Komanda avqustun 25-dən 31-dək isə “Gənclik Kampı” təlim-məşq toplanışlarında iştirak edəcək.

Millimiz baş məşqçi Şahin Atamovun rəhbərliyi altında turnir və hazırlıq prosesinə qatılacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

***✓ Bakı şəhər sakini Teyyubov Namik Əlhadi oğluna məxsus “90 XH 981” qeydiyyat nişanlı “HYUNDAI HD-78” markalı furqon tipli ağ rəngli yük avtomobilinə verilmiş “AB” seriyalı, 374981 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.***

*Mənəvi dünyamız*

# Unudulmaz ata silləsi



## *Nəvazişli tumar kimi, sərt toxunuş da tərbiyəvi olur*

**Ailədə böyüklü-kiçikli 6 uşaq idik. Bəzən digər uşaqlar kimi həyətdə ora-bura qaçar, arada küsüb dalaşar, “qaç-qov” oynayardıq… Amma mən heç vaxt atamın kiməsə əl qaldırdığını görmədim. Evin içindəki sükutun, tərbiyənin, nəzakətin arxasında onun sakit, amma nizamlı varlığı dururdu. O, bizi səsi ilə deyil, baxışı ilə tərbiyə edirdi.**

Lakin bir dəfə, təkcə bir dəfə ondan sillə aldım. Əslində, sillə deyildi, bu, bütün həyatım boyu aldığım ən güclü dərs idi…

11 yaşım olardı. Küçədə, darvazamızın ağzındakı skamyada oturmuşdum. Gün batmaq üzrə idi, payızın ilk sərinliyi hiss olunurdu. Qonşuluğumuzda bir oğlan vardı, məndən bir-iki yaş böyük, cüvəllağı, səsi-küyü məhləni götürən bir uşaq. Gəlib yanımda oturdu. Cibindən bir dəst kart çıxardı.

– Gəl oynayaq, - dedi.

Utandım:

– Oynamağı bacarmıram, – dedim.

O israr etdi:

– Mən öyrədərəm.

Kartları düzdü, mən də bir qədər maraqlandım. Əlimi kartlara uzatdım ki, atam darvazadan çıxdı. Təkcə bir kəlmə dedi:

– Keç içəri.

Bu iki söz o qədər kəsərli idi ki, sanki içimdə nəsə sındı. İtaətlə içəri keçdim. Eşik darvazası örtülən kimi o silləni vurdu. Duruxdum. Çaşdım. Gözləmirdim. Ona baxdım. Üzünü yana çevirib, bir söz demədən aralandı. Yenə sükut... Bu, bəlkə də bir ilin sükutuna bərabər idi. Və o anda gördüm ki, yaylığını çıxardı. Gözlərini sildi. Üzünü gizlətsə də, baxdım ki, ağlayır.

Onda atamı ilk dəfə ağlayan gördüm. Bütün vücudum titrədi. Bu dəfə sillənin ağrısını yanağımda deyil, ürəyimdə hiss etdim. O an, ilk dəfə atamın içindəki sevgini bu qədər dərindən hiss etdim. Həmin sillədə acı yox idi, orada qoruma vardı. Narahatlıq vardı. Gələcəyimə yönəlmiş bir toxunuş vardı.

Və bəlkə də özünə hirslənmişdi. Çünki onu vurmağa vadar edən dünya idi, küçənin öz qaydası, qorxduğu gələcək idi...

Atam o sillə ilə mənə nəyi qadağan etdiyini deyil, nədən qoruduğunu anlatdı. O, kart oyunu deyildi onun qorxusu. O, mənim tədricən sürüşəcəyim bir yolun qarşısını ilk addımda kəsmək istəyi idi. Mənə nizamı, təmizliyi, əxlaqı sözlə yox, bir jestlə anlatmışdı. Elə bir jest ki, illər keçsə də təsiri silinmədi.

O gündən sonra mən bir daha kart oyununa baxmadım. Hətta indi də... Yanımda domino da oynananda, bu ahıl yaşımda elə bil nəsə ruhuma toxunur, yavaşca aralanıram.

Tələbə idim... Tətil vaxtları onunla süfrə arxasında oturmaq mənim üçün bayramdan da qiymətli idi. Çay içə-içə köhnə günlərdən danışırdı. Mən isə uşaqcasına soruşurdum:

– Səni uşaq vaxtı necə çağırırdılar?

İri, qara gözləri güldükcə mən də gülürdüm. Çünki onun danışığı özü bir nağıl idi – sözləri şəkər, fikirləri bal. Bəlkə də mən onun danışığından o qədər zövq alırdım ki, qocalığını görə bilmədim. Ondan doymaq olmurdu. Doymadım da…

Və beləcə 16 oktyabr mənim üçün təqvimdə bir yara yerinə çevrildi. Bu elə bir gün oldu ki, atam danışa bilmədi, mən isə danışdırmağa gecikdim. O gün yenidən 11 yaşlı uşaq oldum. Həyatımın ən səsli səssizliyi idi o gün. Atam bizdən ayrıldı. Elə qəfil, elə qürurlu getdi ki, sanki yenə də bir söz demədən bizi tərbiyə edirdi. Deyirdi ki, “bax, belə gedirlər, oğlum... baş əymədən, iz qoyaraq, sevgi buraxaraq...”

İndi yaşım atamın bizi tərk etdiyi yaşı çoxdan keçib. Amma hələ də darvazanın ağzında oturan o cılız uşaq kimiyəm. İstəyirəm ki, o, bir də çıxsın. Bir də görsün ki, əlimdə kart yoxdur. Tək-tənha, sakitcə oturmuşam. Susmuşam. Harasa uzaqlara baxıram…

İndi dönüb baxanda düşünürəm: Atam bizə nə miras qoydu? Heç bir varidat, sərvət, titul yox...

Amma bir sillənin içindəki dəyəri, bir baxışın içindəki qorxunu, bir susqunluğun içindəki sevgini bizə öyrətdi.

O sillə təkcə əlimə yox, ömrümə dəydi.

O yaylıq təkcə göz yaşını silmədi, bir kişinin izzətini gizlətdi.

Atam bir dəfə vurdu, bir ömür qorudu.

Və mən bir ömür boyu minnətdaram.

***Hamlet QASIMOV,***
***Əməkdar jurnalist***

**Gəncə**



# “AMEA–80” döş nişanı

**Yubiley münasibətilə AMEA-nın 80 illik yubiley döş nişanı hazırlanıb və ilk dəfə olaraq Yusif Məmmədəliyev, Üzeyir Hacıbəyli, Lev Landau, Əziz Səncər döş nişanları da təsis ediləcək.**

Akademiyadan mətbuata bildirilib ki, bunu AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Rəyasət Heyətində akademiyanın 80 illiyinə hazırlıq məsələlərinə həsr olunmuş müşavirədə söyləyib.

AMEA-nın 80 illik yubileyinin ilk dəfə olaraq beynəlxalq elmi təşkilatların rəhbərlərinə, dünyanın müxtəlif qitələrindən olan tərəfdaş akademiyalarının, o cümlədən türk dünyası akademiyalarının prezidentlərinə dəvət məktublarının göndərildiyini bildirib, artıq onların əksəriyyətinin dəvəti qəbul etdiklərini diqqətə çatdırıb.

AMEA-nın 80 illik yubileyi çərçivəsində Türk dünyası akademiyaları ilə əməkdaşlığın inkişaf etdirilməsinə dair ayrıca bir iclasın keçirilməsi də nəzərdə tutulub.

***XQ***

*HAVA*

## Bakı küləkli şəhərdir...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək, günün ikinci yarısından zəifləyəcək. Havanın temperaturu gecə 21-25, gündüz 26-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 760 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-25, gündüz 31-36, dağlarda gecə 10-15, gündüz 18-23 dərəcə isti olacağı ehtimal edilir.

***XQ***

## Tibbi müayinəyə tələsin!

**Yevlax şəhərində “Erkən müayinə can qurtarır!” adlı səyyar tibbi müayinə və maarifləndirmə aksiyası təşkil olunub. Nazirliyin mətbuat xidmətindən bildirilib ki, PAŞA Holdingin və Səhiyyə Nazirliyinin dəstəyi ilə reallaşan tədbirin əsas məqsədi regionda ictimai sağlamlıq savadlılığını artırmaq, erkən diaqnostikanın əhəmiyyətinə diqqət çəkmək və əhali üçün əlçatan tibbi xidmət imkanlarını genişləndirməkdir.**

Gün ərzində aksiyada Yevlax və ətraf rayon sakinlərinin müayinəsi həyata keçirilib. Aksiyaya qanda şəkər və arterial təzyiqin ölçülməsi, ilkin laborator analizlər, terapevt, nevropatoloq, pediatr və endokrinoloq müayinələri, tibbi məsləhət və yönləndirmələr daxil olub.

Səyyar tibbi heyət tərəfindən risk qrupuna daxil olan şəxslər müəyyənləşdirilərək, onlara fərdi sağlamlıq tövsiyələri verilib, qanda şəkər səviyyəsində pozuntular aşkarlanan şəxslərə qlükometr cihazları hədiyyə edilib. Ümumilikdə müayinələr vaxtı 270 nəfər həkim tövsiyələrindən yararlanıb, 75 nəfər diabet xəstəsinə isə qlükometr cihazı verilib. Bu, onların gündəlik qlikemik nəzarətini asanlaşdırmaqla yanaşı, uzunmüddətli fəsadların qarşısının alınmasına yönəlmiş mühüm addımdır. Aksiya zamanı azyaşlı pasiyentlərə rəngləmə kitabçaları və rəngli qələmlər təqdim olunub.

***XQ***

## “Kapital Bank” ASC səhmdarlarının nəzərinə!

25 sentyabr 2025-ci il saat 11.00-da, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti 153 nömrəli ünvanda yerləşən “Port Baku Towers 2” ofisində (17-ci mərtəbədə yerləşən “Silicon Valley” otağı) Bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

I. “Kapital Bank” ASC tərəfindən 2024-cü ilin maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi haqqında.

Məruzəçi- Zaur Musayev.

II. Digər məsələlər.

Məruzəçi- Yaşar Məmmədov.

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası Milli Məclisinin deputatı Aydın Hüseynova əzizi

**MAHMUD QULUZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri qurumun sabiq şöbə müdiri Yaşar Namazəliyevə həyat yoldaşı

**SEVDA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3483
SİFARİŞ 1728
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00